QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 009 (5729) **16 yanvar** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə effektiv dövlət idarəetmə aparatı formalaşıb

Səh 5



"Azərbaycan-Fransa münasibətləri bütün sahələrdə inkişaf edir" 2



Nazirlər Kabineti Aparatının növbəti iclası keçirilib 2



"Ermənistan spikerinə bəyanatlar verməndən öncə məlum tarixi hadisələrə nəzər yetirməyi tövsiyə edirik" 4



Türkiyə Prezidentinin köməkçisi: Dağlıq Qarabağ münaqişəsinin həlli regionun inkişafını təmin edəcək 4



Dubayda Azərbaycan Ticarət Evi açılıb 6



Azərbaycanın inamlı inkişafı gələcəyə hesablanıb 7



9 "Yeni dünyanın çağırışları islahatları zəruri edir"



9 Cənubi Koreya qəzetlərində qanlı Yanvardan bəhs edən məqalələr dərc olunub



16 "Barselona" dünyada futbolçulara ən çox maaş verən klubdur!

# “Azərbaycan-Fransa münasibətləri bütün sahələrdə inkişaf edir”

*Prezident İlham Əliyev Fransanın sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də ölkəmizdə səfərdə olan Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Nikola Sarkozi bir neçə il bundan əvvəl Azərbaycana səfərindən ötən dövr ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Bakıda həyata keçirilən böyük quruculuq və abadlıq işlərinin şahidi olduğunu dedi və bütün bu inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd etdi.

Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Nikola Sarkozinin 2007-2012-ci illərdə Fransanın Prezidenti olduğu dövrdə Azərbaycan-Fransa münasibətlərinin möhkəmləndiyi vurğulanıb, bir çox sahələrdə əlaqələrimizin böyük inkişaf yolu keçdiyi qeyd edilib. Azərbaycan Prezidenti və Nikola Sarkozi öz aralarında keçirilən görüşləri məmnunluqla xatırlayıblar. Qeyd olunub ki, həmin dövrdə təhsil sahəsində əməkdaşlığın yeni çərçivələri məhz Prezident İlham Əliyev və Nikola Sarkozinin birgə səyləri nəticəsində mümkün olub. Bakıda hər iki Prezidentin iştirakı ilə Fransız liseyinin təməlinin qoyulması əlamətdar hadisə kimi dəyərləndirilib. Həmin illərdə yüksək səviyyəli siyasi əlaqələrin möhkəmlənməsi nəticəsində bir çox fransız şirkətləri Azərbaycanda fəaliyyətə başlayıb və ya öz fəaliyyətini genişləndiriblər.

Nikola Sarkozi ona göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Prezident İlham Əliyev, öz növbəsində, Nikola Sarkozini yenidən Azərbaycanda görməyindən məmnun olduğunu ifadə edib.



# Nazirlər Kabineti Aparatının növbəti iclası keçirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda qaldırılan məsələlərlə əlaqədar Nazirlər Kabineti Aparatının növbəti iclası keçirilib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Novruz Məmmədov 2018-ci ildə ölkəmizin əldə etdiyi uğurlu nəticələrdən, aparılan iqtisadi islahatlardan, yeniliklərdən bəhs edib və iclas zamanı Prezident İlham Əliyevin qeyd etdiyi istiqamət və hədəflərin hökumət üçün əsas meyar olduğunu bildirib. Ötən ildə atılan addımlar iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılması baxımından ölkəmizin dünya miqyasında reytinqinin yüksəlməsinə səbəb olub. Xüsusən də, vergi və gömrük sahələrində institusional dəyişikliklər, şəffaflıq və sağlamlaşdırma tədbirləri müsbət nəticələr verib. Əhalinin aztəminatlı hissəsinin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, məcburi köçkünlərin sosial problemləri daim dövlətin diqqət mərkəzindədir.

İlin mühüm hadisələri olan “Azerspace-2” peykinin orbitə çıxarılması, Cənub Qaz Dəhlizinin, TANAP qaz kəmərinin, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının, Türkiyədə ən böyük layihələrdən olan “STAR” neft emalı zavodunun açılışları, Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması dövlətimizin başçısının apardığı məqsədyönlü siyasətin əməli nəticələridir. Baş nazir vurğulayıb ki, 2019-cu ildə də ölkəmizdə mühüm işlərin həyata keçirilməsi, idarəetmədə yeni yanaşmanın tətbiq olunması nəzərdə tutulub. Bu il yeni Sumqayıt-Rusiya sərhədi yolunun inşası, həmçinin 100-dən çox məktəb binasının tikintisi, 10-a yaxın mərkəzi rayon xəstəxanasının, üç Olimpiya İdman Kompleksinin, beş “ASAN xidmət” mərkəzinin, Bakı şəhərində “DOST” mərkəzlərinin istifadəyə verilməsi nəzərdə tutulur.

Aqrar sahənin inkişafına nəzər salan Baş nazir Novruz Məmmədov ötən ildə aparılmış meliorativ tədbirlər nəticəsində əkin dövriyyəsinə cəlb olunmuş torpaqların səmərəli istifadə edilməsi ilə bağlı tədbirlər barədə də danışıb.

Sonda sosial-iqtisadi inkişafın nəticələrinə dair fikir mübadiləsi aparılıb, Prezident İlham Əliyevin iclasda verdiyi tapşırıqların icrası ilə əlaqədar hökumət tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərlə bağlı Nazirlər Kabineti Aparatının aidiyyəti şöbələrinə müvafiq göstərişlər verilib.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Konsulluq xidmətlərinin göstərilməsində şəffaflığın artırılması məqsədilə “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Gürsel İsmayılzadənin Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Gürsel Qüdrət oğlu İsmayılzadə Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***

Prezident İlham Əliyev Arif Alışanovun “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.



# İlham Əliyev: “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun sağlamlığı və təhlükəsizliyi dayanır”

***Son 15 ildə Azərbaycanın qazandığı nailiyyətlər göz önündədir. Valyuta ehtiyatlarımızın 44,3 milyard dollara yüksəlməsi, ölkə iqtisadiyyatına 250 milyard dollar investisiyanın yatırılması Azərbaycanın sosial-iqtisadi inkişafının əyani göstəricisidir. Təbii ki, bu inkişafın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır.***

Tam müstəqil siyasət yürüdən Azərbaycan heç kimdən asılı deyil və iqtisadi müstəqillik ölkəmizə böyük dividendlər qazandırıb. Dövlət başçısının söylədiyi kimi, iqtisadi baxımdan 15 il ərzində, Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur: “Bütün bu işləri öz daxili imkanlarımız hesabına görürük, heç bir yerdən yardım almırıq, iqtisadiyyatımız inkişaf edir. Bu il də yaxşı nəticələr olacaqdır. Gələn il daha yaxşı nəticələr olacaq. Artıq ilkin proqnozlar verilibdir. Gələn il sürətli inkişaf ili olacaq. Beləliklə, maliyyə imkanlarımız daha da genişlənəcək və ölkə qarşısında duran əsas vəzifələrin, infrastruktur layihələrinin, eyni zamanda və ilk növbədə, sosial məsələlərin həlli üçün biz bu vəsaitdən istifadə edib sizin problemlərinizi həll edəcəyik”.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı və kompleks tədbirlər makroiqtisadi sabitliyin daha da möhkəmlənməsinə, ölkənin dayanıqlı inkişafına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə mühüm töhfələr verir. Digər tərəfdən, bu siyasətin əsas mahiyyəti aztəminatlı əhali qruplarının dayanıqlı təminat sistemini yaratmaq, bununla da, ölkə əhalisinin həyat şəraitinin uzun müddət ərzində yaxşılaşdırılmasına nail olmaqdır. Son illər maaşların, pensiyaların, təqaüdlərin, sosial müavinətlərin dəfələrlə artması və işsizlik probleminin getdikcə aradan qaldırılması, bunları bir daha təsdiqləyir. Bir sözlə, görünən odur ki, ölkə əhalisinin sosial müdafiəsinin təmin edilməsi müstəqil Azərbaycan dövlətinin qarşısında duran strateji vəzifələrdən biridir. Dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Elə, bu uğurlu siyasətin məntiqi nəticəsi olaraq, yanvarın 14-də Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın paytaxtın Qaradağ rayonunun Qobustan qəsəbəsində Səhiyyə Nazirliyinin yeni inşa olunan 17 saylı Birləşmiş Şəhər Xəstəxanasının açılışı və dövlət başçısının çıxışı bir daha bu siyasətin reallığının təsdiqidir.

## “İnsan sağlamlığının qorunması Azərbaycanda həyata keçirilən siyasətdə ən başlıca məsələlərdən biridir”

Qaradağ rayonunun Qobustan qəsəbəsində Səhiyyə Nazirliyinin yeni inşa olunan 17 saylı Birləşmiş Şəhər Xəstəxanasının açılışı, bir daha onu göstərir ki, son 15 ildə səhiyyə sisteminin təkmilləşdirilməsi, bu sahənin müasirləşdirilməsi və inkişafı son illərdə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin və bu sahənin inkişafına yüksək diqqət və qayğının bariz nümunəsidir. “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır”, - deyən Prezident İlham Əliyevin mükəmməl islahatlar kursu respublikanın iqtisadi potensialının gücləndirilməsində sürətli inkişaf mərhələsini şərtləndirməklə bərabər, yüksək sosial standartlara malik cəmiyyətin qurulmasına, sosial firavanlığın təminatına doğru mühüm addımların atılmasına zəmin yaradıb.

Dövlət başçısı çıxışı zamanı bildirib ki, vətəndaşlardan gələn hər bir təklifə qayğı ilə yanaşılır: “Mən xatırlayıram, bir neçə il bundan əvvəl, Qobustan qəsəbəsində olarkən, mənə xəstəxananın baş həkimi müraciət etmişdi ki, yeni xəstəxana tikilsə yaxşı olar. Mən də dərhal göstəriş verdim, vəsait ayırdıq və bu gün bu gözəl xəstəxananın açılışında biz birlikdə iştirak edirik. Onu da xatırlayıram ki, o səfərdə bir neçə xahiş irəli sürülmüşdü. Onların arasında Mədəniyyət Evinin, məktəbin, poliklinikanın və xəstəxananın tikilməsi təklifləri var idi və hər biri icra edildi. Yəni qəsəbənin və rayonun sakinlərinin xahişləri ən yüksək səviyyədə yerinə yetirildi. Bu gün bu gözəl xəstəxana, ilk növbədə, bizim siyasətimizi əks etdirir. Bu, onu göstərir ki, insan sağlamlığı bizim üçün ən başlıca məsələlərdən biridir, digər tərəfdən, onu göstərir ki, yerlərdən, vətəndaşlardan gələn hər bir təklifə baxılır və imkan daxilində bu təkliflər təmin edilir, onlar yerinə yetirilir”.

## “Xalqla canlı təmas bizim uğurlarımızın təməlində dayanan ən vacib amillərdən biridir”

Dövlətimizin başçısı vətəndaşlardan gələn hər bir təklifə baxıldığını və imkan daxilində, bu təkliflərin təmin edildiyini və yerinə yetirildiyini bildirib. “Bu canlı təmas, hesab edirəm ki, bizim uğurlarımızın təməlində dayanan ən vacib amillərdən biridir və mənim vətəndaşlarla müntəzəm görüşlərim, rayonlara səfərlərim, - təkcə keçən il 24 rayona səfər etmişəm, - Bakı qəsəbələrinin problemlərinin həlli ilə bağlı atılan addımlar və yerlərdən gələn təkliflərə müsbət yanaşılması bizim uğurlu inkişafımızı təmin edir. Əgər o vaxt mənim qarşımda bu məsələ qaldırılmasaydı, bəlkə də indi bu xəstəxana da tikilməyəcəkdi. Ona görə, mən həmişə deyirəm ki, insanları narahat edən, həlli vacib olan məsələlər daim məruzə edilsin, məlumat verilsin ki, biz bu məsələləri həll edək.”

## “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır”

Prezident İlham Əliyev Qaradağ rayonunun Qobustan qəsəbəsində yeni inşa olunan xəstəxananın açılışında çıxış edərkən, bildirib ki, insan sağlamlığı bizim üçün ən başlıca məsələlərdən biridir.

Dövlətimizin başçısı vurğulayıb ki, hər bir insan üçün onun sağlamlığı, onun yaxınlarının sağlamlığı xüsusi əhəmiyyət daşıyır: “Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır və hər bir insan üçün onun sağlamlığı, onun yaxınlarının sağlamlığı xüsusi əhəmiyyət daşıyır. Biz çalışırıq və çalışacağıq ki, bu sahədə, bütün lazımi tədbirləri görək. Onu da bildirməliyəm ki, təkcə son 15 il ərzində ölkəmizdə 600-dən çox xəstəxana, tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı şəkildə təmir edilib. Ölkəmizin hər bir şəhərində və ya onların mütləq əksəriyyətində müasir xəstəxanalar artıq tikilib və bir neçə şəhərdə tikinti işləri davam edir. Yaxın gələcəkdə Azərbaycanda elə bir şəhər olmayacaq ki, orada ən müasir tibbi mərkəz olmasın. Siz yaxşı bilirsiniz ki, 5 milyondan çox insan hər il dövlət xətti ilə tibbi müayinədən keçir. Bu, bizim təşəbbüsümüzdür və dünyanın nadir ölkələrində belə təşəbbüs həyata keçirilir. Bunun da, bir məqsədi var ki, vətəndaşlar, əgər onların sağlamlığında hər hansı bir problem varsa, onu vaxtında aşkar etsinlər və yüksək səviyyəli müalicə alsınlar. Bu proqram nəticəsində, minlərlə insan, artıq lazımi səviyyədə müalicə alır”.

Dövlət başçısı, onu da qeyd edib ki, Azərbaycan vətəndaşlarının daha yaxşı yaşaması üçün güclü iqtisadiyyat olmalıdır və bu cür iqtisadiyyat Azərbaycanda var: “Biz bütün bunları, bütün bu işləri, ona görə görürük ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar və onları narahat edən məsələlər öz həllini tapsın. Əlbəttə ki, buna nail olmaq üçün güclü iqtisadiyyat olmalıdır və biz bu iqtisadiyyatı qururuq. Keçən ilin nəticələri, - bir neçə gün bundan əvvəl bu barədə mən xalqa hesabat verdim, - çox müsbətdir. Bu, onu göstərir ki, biz düzgün yoldayıq, biz uğurla inkişaf edirik və ölkəmiz öz hesabına, öz daxili imkanları hesabına bütün lazım olan məsələləri həll edir, həm sosial, həm iqtisadi, infrastrukturla bağlı və digər məsələləri. Əminəm ki, gələcək illərdə, o cümlədən, əlbəttə ki, 2019-cu ildə biz bu müsbət dinamikanı saxlayacağıq, ölkəmiz uğurla inkişaf edəcək və bütün məsələlər öz həllini tapacaq”.

Bütün bunlar, bir daha onu göstərir ki, Azərbaycan dövlətinin praqmatik siyasətinin və insan amilinə verilən dəyər həmişə çox yüksək olub. Və şübhəsiz, sürətli iqtisadi inkişaf vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasında əks olunur. Bu siyasətin davamlı xarakter alması üçün dövlətimiz bütün uğurlu vasitələrdən istifadə edir və atılan addımların yaxın gələcəkdə daha çox səmərə verəcəyini artıq indidən proqnozlaşdırmaq olar. Hər bir azərbaycanlı ölkədə yürüdülən uğurlu sosial siyasətin bəhrəsini qarşıdakı illərdə də görəcək.

**RƏFİQƏ KAMALQIZI**

# "Ermənistan spikerinə bəyanatlar vermədən öncə məlum tarixi hadisələrə nəzər yetirməyi tövsiyə edirik"

***Yeni seçilmiş Ararat Mirzoyanın Ermənistan Parlamentində etdiyi ilk çıxışında ermənilərə qarşı uydurma qırğından bəhs etməsi, "tarixən zorakılıqlarla üzləşmiş bir xalq kimi, hər hansı milli azlığa qarşı zorakılığın törədilməsinə dözümlülük nümayiş etdirə bilmərik" kimi fikirlər səsləndirməsi erməni spikerinin özünün inandığı yalanlara başqalarını da inandırmaq kimi uğursuz cəhdidir***



Bunu Trend-ə Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva Ermənistan parlamentinin yeni təyin olunmuş spikeri Ararat Mirzoyanın "bu günlərdə 1990-cı ildə Bakıda ermənilərin qırğını törədilib" fikirlərinə münasibət bildirərkən deyib.

L.Abdullayevanın sözlərinə görə, bu fikri söyləyən Ermənistan Parlamentinin spikeri son iki əsr ərzində erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə törədilən etnik təmizləmə, soyqırımı və təcavüzkar siyasət nəticəsində baş vermiş çoxsaylı faciələrdən xəbərdar olmaya bilməz, əlbəttə:

"Ancaq tarixin bəzi səhifələrini silib, onu öz istədiyi şəkildə yazmaq istəyənlərə çox deyil, yalnız son onilliklər ərzində ermənilər tərəfindən törədilmiş bəzi qanlı hadisələri xatırlatmaq istərdim.

1988-1991-ci illərdə, Sovet İttifaqının hakim dairələri tərəfindən himayə edilən Ermənistan Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeritmiş, nəticədə dinc sakinlər qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, talan edilmişdir. 1988-ci il 18 sentyabr tarixində Xankəndidə yaşayan 15 minə qədər azərbaycanlı şəhərdən zorakılıqla çıxardılaraq evləri yandırılmışdır. Ermənistanın təcavüzkar siyasəti nəticəsində yalnız Dağlıq Qarabağ ərazisindən 50 min azərbaycanlı soyqırımına və təcavüzə məruz qoyulub və didərgin salınıb. Bu dövr ərzində etnik təmizləmə nəticəsində Ermənistandakı 185 azərbaycanlı kəndindən 250 min nəfərədək azərbaycanlı təcavüzə məruz qalaraq zorakılıqla doğma yurdlarından qovulub. 1992-ci ilin fevralın 25-dən 26-a keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş Xocalı soyqırımı nəticəsində aralarında azyaşlı uşaqlar, qadınlar və yaşlı insanlar olmaqla 613 nəfər dinc sakin vəhşicəsinə qətlə yetirilib. Bu günədək dünyanın 16 ölkəsi və Amerika Birləşmiş Ştatlarının 24 ştatı Xocalı soyqırımını tanıyıb və pisləyib. Ümumilikdə, Ermənistanın işğalçı siyasəti nəticəsində hazırda bir milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Qeyd etdiyim kimi, sadaladıqlarım yalnız son onilliklər zamanı Ermənistan tərəfindən törədilmiş qanlı hadisələrdir. Mən hələ XX əsrin əvvəllərində 1905-07, 1918-ci illərdə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə və soyqırımını qeyd etmədim.

Ermənistan spikerinə bəyanatlar vermədən öncə məlum tarixi hadisələrə, onların acınacaqlı nəticələrinə bir daha nəzər yetirməyi və bəyanatlarını xalqlararası nifaqın qızışdırılması deyil, bölgədə sülh, tərəqqi və gələcək inkişaf naminə verməyi tövsiyə edirik".

## Nizami Cəfərov: 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunması qüdrətli söz ustadlarından olan şairin yaradıcılığına böyük ehtiramdır



"Dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunması orta əsrlərin ən qüdrətli söz ustadlarından olan şairin yaradıcılığına yeni baxışın ortaya qoyulması, bu görkəmli şəxsiyyətin irsinin dünya ictimaiyyətinə çatdırılması baxımından böyük məna kəsb edir". Bu fikirləri Milli Məclisin deputatı, akademik Nizami Cəfərov deyib.

N.Cəfərov bildirib ki, Azərbaycanda hər zaman dövlət rəhbərliyi səviyyəsində söz, ədəbiyyat adamlarına, böyük şəxsiyyətlərə, mütəfəkkirlərə, bu xalqın taleyində böyük rolu olmuş yaradıcı şəxslərə qarşı böyük qayğı və diqqət olub. Bunun nəticəsidir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2019-cu il "Nəsimi ili" elan edilib. Onun sözlərinə görə, ölkə başçısının bu qərarı bütün xalqımız tərəfindən yüksək qiymətləndirir.

"Azərbaycanın dahi şairi Nəsimi bu xalqın dərdlərinin, əzablarının şairi, haqq-ədalət çarcısı olub. Bütün əzab-əziyyətlərə, incidilmələrə, tərki-Vətən edilməsinə baxmayaraq, öz yazdıqlarının üstündən xətt çəkməyib, əqidəsindən dönməyib. Belə bir dahi şairin, böyük söz adamının xatirələrdə, hafizələrdə, yaddaşlarda yaşaması təbiidir. Azərbaycan, fars və ərəb dillərində çoxsaylı orijinal əsərlərin müəllifi olan Nəsiminin xüsusilə poeziya və ədəbi dilin inkişafında əvəzsiz xidmətləri olub. Nəsiminin yaradıcılığı dilçilik, eləcə də Azərbaycan türkcəsinin tarixini öyrənmək baxımından böyük əhəmiyyətə malikdir"-deyə, N.Cəfərov vurğulayıb.

## Türkiyə Prezidentinin köməkçisi: Dağlıq Qarabağ münaqişəsinin həlli regionun inkişafını təmin edəcək



Dağlıq Qarabağ münaqişəsinin həlli regionun inkişafını təmin edəcək. Trend-in məlumatına görə, bunun Türkiyə Prezidentinin köməkçisi Yalçın Topçu deyib.

Y.Topçunun sözlərinə görə, münaqişənin uzanması regionda təhlükəsizliyə real təhdiddir.

Türkiyə Prezidentinin müşaviri qeyd edib: "Bütün dünya, o cümlədən BMT Azərbaycan torpaqlarının işğal olunması faktını təsdiq edir".

## Ermənistanda "donuz qripi"ndən ölənlərin sayı ikiyə çatıb

Ermənistanda "donuz qripi" adlanan xəstəliyin törədicisi H1N1 virusundan ölənlərin sayı ikiyə çatıb. Bu ölkənin Səhiyyə Nazirliyinin məlumatına görə, xəstəliyin növbəti qurbanı ürək-damar xəstəliyindən əziyyət çəkən 62 yaşlı vətəndaş olub. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, "donuz qripi" virusuna yoluxan şəxsin ölüm səbəbi xəstəxanaya gec müraciət etməsidir.

Məlumatda bildirilir ki, 2019-cu ildə Ermənistanda qriplə bağlı xəstəxanalara 1080 nəfər müraciət edib, stasionar müalicədə olan 837 nəfərin isə 95 faizi uşaqlardır. Məktəblərdə aparılan monitorinq zamanı da xəstəliyə yoluxmuş 499 azyaşlı müəyyən edilərək müalicəyə göndərilib.

# Hikmət Babaoğlu: "Həyata keçirilən islahatlar idarəetmənin optimallaşdırılması ilə yanaşı, səmərəliliyini də artıracaq"

***Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi məqsədilə həyata keçirilən struktur islahatları əslində 2015-ci ildən bəri reallaşdırılan dərin hüquqi və institusional islahatların davamı kimi xarakterizə edilməlidir. Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.***



Deputat bildirib ki, Azərbaycan dinamik və hərtərəfli inkişaf edən bir ölkədir və bu inkişaf daha çevik strukturа malik olan optimal idarəetmə tələb edir. Çünki məqsəd əldə edilən nailiyyətlərin davamlılığını təmin etməklə gələcək üçün daha səmərəli şərtlər formalaşdırmaqdır. Ona görə də bir-biri ilə paralel olan, yaxud səmərəliliyi arzuedilən səviyyədən aşağı olan struktur vahidlərinin ləğv edilməsi, birləşdirilməsi, ya da daha çevik mexanizmlərlə əvəzlənməsi idarəetmənin aktual tələbi kimi meydana çıxmışdı. Prezident İlham Əliyevin Fərmanı ilə həyata keçirilən struktur islahatları da məhz bu sahənin tənzimlənməsini təmin edəcək.

Hikmət Babaoğlu qeyd edib ki, həyata keçirilən islahatlar idarəetmənin optimallaşdırılması ilə yanaşı, onun səmərəliliyini də artıracaq və davamlı hal alacaq. Çünki hazırda malik olduğumuz siyasi-iqtisadi sistemin modernist səciyyəsi daim yenilik tələb etməklə bütün sahələr üzrə ölkəmizin rəqabətqabiliyyətliliyini artırır. Hazırda dünyanın bir çox reytinq təşkilatları müxtəlif sahələr üzrə Azərbaycanın inkişaf indeksini ən yüksək pillələrdə müəyyən edir. Əgər bunun gələcəkdə də belə olmasını istəyiriksə, bütün sektorlarda, o cümlədən idarəetmədə islahatlar davam etdirilməlidir ki, hazırda biz buna şahidlik edirik. Məsələnin ən vacib tərəflərindən biri də budur ki, indiyədək həyata keçirilən islahatlar nəticəsində iqtisadiyyatın, sənayenin ən müxtəlif sahələrində olduqca münbit biznes mühiti yaranıb. Ümumi daxili məhsul istehsalı sahəsində özəl sektorun xüsusi çəkisi kifayət qədər artıb və bu da bir sıra sahələrdə dövlət tənzimləməsini zəruri etmir. Ona görə də gələcəkdə həmin sahələri tənzimləmək üçün mövcud olan bir sıra qurumlarda da idarəetmənin təkmilləşdirilməsi ilə bağlı müvafiq addımlar atla bilər. Beləliklə, idarəetmə aparatını süni şəkildə ağırlaşdıran struktur vahidləri və onlara ayrılan xərclər inkişafın digər aktual sektorlarına yönəldilməklə daha səmərəli nəticələr əldə etməyə imkan yaradar. Ümumiyyətlə, struktur islahatları desentralizasiya siyasətinin tərkib hissəsi olmaqla dövlətin yükünü azaltmağa, liberal iqtisadi münasibətlərin formalaşmasına və yerli özünüidarəetmə institutlarının səmərəliliyinin artmasına böyük töhfələr verəcək.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 15-də Tərtər rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçiriblər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller aparıblar.

## İran Silahlı Qüvvələri Baş Qərargah rəisinin Azərbaycana səfəri gözlənilir

Yanvarın 16-da İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-leytenant Məhəmməd Hüseyn Baqerinin yüksək rütbəli hərbçilərdən ibarət nümayəndə heyəti ilə Azərbaycan Respublikasına səfəri planlaşdırılır.

İranın ölkəmizdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun dəvəti ilə təşkil olunacaq səfər çərçivəsində nümayəndə heyətinin bir sıra görüşləri nəzərdə tutulub. İkigünlük səfər çərçivəsində Azərbaycan ilə İran arasında müdafiə sahəsində mövcud əlaqələr və işbirliyi, sərhəd əməkdaşlığı, terrorizmə qarşı mübarizə və regionda baş verən hadisələr haqqında fikir mübadiləsi aparılacaq. Qeyd edək ki, bu, İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-leytenant Məhəmməd Hüseyn Baqerinin Azərbaycana ilk səfəridir.

***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2019-cu il yanvarın 14-də struktur islahatları istiqamətində mühüm qərarlar qəbul edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılmasına dair Fərman imzalayıb. Fərmana əsasən, ölkədə dövlət idarəetmə strukturunu optimallaşdırmaq, müdafiə sənayesinin inkişafının dayanıqlılığını təmin etmək, bu sahədə idarəetmə mexanizmlərini daha təkmilləşdirmək, habelə, sənayeləşmənin yeni mərhələsində mövcud potensialdan səmərəli istifadə etməklə, Azərbaycanın regionda silah istehsal edən əsas sənaye mərkəzlərindən birinə çevrilməsinə nail olmaq məqsədilə Müdafiə Sənayesi Nazirliyinin əsasında "Azərsilah" ASC yaradılır.***



# Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə effektiv dövlət idarəetmə aparatı formalaşıb

Sənədə əsasən, cəmiyyətin qabaqcıl texnologiyaları tətbiq edilməklə, Azərbaycanda silah istehsalını, ixracını, onların ölkə daxilində və xaricdə satışının təşkilini həyata keçirən, müasir menecment və korporativ idarəetmə standartları əsasında tabeliyində olan müəssisələrin fəaliyyətinin əlaqələndirilməsini və bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirən kommersiya hüquqi şəxs olduğu müəyyən edilib. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti üç üzvdən - Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi İdarə Heyətinin sədrindən və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirəcək.

Bununla yanaşı, Prezident İlham Əliyev "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Aqrar sahədə göstərilən dövlət xidmətlərinin optimallaşdırılması və səmərəliliyinin artırılması, həmin dövlət xidmətlərinin daha az həcmdə resurs sərf edilməklə həyata keçirilməsi, dövlət vəsaitinə qənaət edilməklə bu sahədə inzibati idarəetmənin təkmilləşdirilməsi, xidmətlərin həyata keçirilməsində keyfiyyətə nəzarətin təşkili, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi, elektron xidmətlərə keçidin sürətləndirilməsi və vətəndaş məmnunluğunun artırılması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi yanında olan Dövlət Fitosanitar Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki-Nəzarət Xidmətinin əsasında Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi yaradılıb.

Fərmana əsasən, agentlik baytarlıq və fitosanitar xidmətlərinin təşkilini və idarə edilməsini, keyfiyyətinə nəzarəti həyata keçirir, bu sahədə Dövlət Aqrar İnkişaf Mərkəzlərinin fəaliyyətini əlaqələndirir, kənd təsərrüfatı texnikasının qeydiyyatını, texnikaya nəzarət fəaliyyətini və bu sahədə dövlət xidmətlərini DAİM vasitəsilə həyata keçirir, aqrokimya, toxum və bioloji laboratoriyalar, sort-sınaq məntəqələri və toxum sertifikatlaşma mərkəzlərində xidmətlərin təşkilinə və göstərilməsinə nəzarət edir.

Bütün bunlarla yanaşı, Prezident İlham Əliyev Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb. Fərmanın imzalanmasında məqsəd Azərbaycan Respublikasında dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi, dövlət orqanlarının və qurumlarının fəaliyyətinin optimallaşdırılması və dövlət büdcəsi vəsaitindən səmərəli istifadənin təmin edilməsidir. Fərmana əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyətləri özünümaliyyələşdirmə prinsipi əsasında həyata keçirilməklə yenidən təşkil edilir. Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi ləğv edilir, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi, Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu, habelə, Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının Katibliyi ləğv edilir və onların fəaliyyəti ictimai əsaslarla həyata keçirilməklə yenidən təşkil edilir.

Göründüyü kimi, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə institusional islahatlar davam etdirilməkdədir. Qeyd edək ki, Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev yeni islahat istiqamətləri barədə danışarkən, qeyd edib ki, "İndi struktur islahatı gözlənilir. Çünki indi idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır - daha çevik, daha yığcam, daha məqsədyönlü". Təsadüfi deyil ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan kompleks islahatlar ölkəmizə "dünyada ən islahatçı" ölkə imici qazandırmaqla yanaşı, həmçinin, davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin edib.

Dövlətimizin başçısının apardığı struktur islahatlar iqtisadiyyatın əsas prinsipi olan səmərəliliyin daha da artırılmasına xidmət edir. Məhz səmərəli dövlət idarəetmə aparatı, Prezidentin tapşırıqlarına uyğun olaraq, məhdud resurslardan istifadə etməklə, maksimum nəticə əldə edə bilər. Struktur islahatlar institusional və tənzimləyici çərçivəni iqtisadiyyatın tarazlı inkişafına xidmətə yönəldir. Struktur islahatların gətirəcəyi faydalardan biri də ölkədə biznes mühitinin daha da təkmilləşdirilməsi və rəqabətin gücləndirilməsindən ibarətdir. Çünki yığcam və məqsədyönlü dövlət aparatı özəl sektorun fəaliyyətinə müdaxiləni minimuma endirməklə, daha çox bazar tənzimlənməsinə şərait yaradır. Beləliklə, dövlət və bazar tənzimlənməsinin optimal nisbəti müəyyənləşir ki, bu da özəl sektorun lokomotiv olduğu iqtisadi inkişafı təmin edir.

Struktur islahatları, xüsusilə, "Azərsilah" ASC və Aqrar Xidmətlər Agentliyinin yaradılması ölkədə aparılan şaxələndirmə siyasətinə xidmət göstərməklə, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, qeyri-neft ixracının genişlənməsi, idxalın əvəzlənməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və ordunun hərbi-texniki təchizatında kəmiyyət və keyfiyyət göstəricilərinin daxili istehsal hesabına yüksəldilməsini təmin edəcək. Dövlət aparatının yığcamlaşması, paralel strukturların aradan qaldırılması və mövcud strukturların isə yenidən təşkili büdcə vəsaitinə qənaət deməkdir. Əslində, dövlətin apardığı struktur islahatları həm biznesə, həm də ictimaiyyətə idarəetmənin səmərəliliyinin artırılması ilə bağlı yaxşı bir nümunədir.

Prezident tərəfindən aparılan struktur islahatları çərçivəsində vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətləri daha əlçatar və keyfiyyətli olacaq. "Bir pəncərə" və rəqəmsallaşma kimi prinsiplər struktur islahatları boyunca keçən əsas xətdir. Prezident İlham Əliyevin apardığı iqtisadi islahatlar zamanı sosial tarazlıq daim qorunub. Bu dəfə də struktur islahatlarına dair sənədlərdə iş yerləri ilə təminat məsələsi diqqətdə saxlanılıb. Dövlətimizin başçısı müvafiq qurumlara və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə bununla bağlı xüsusi tapşırıqlar verib.

Struktur islahatları "yaxşı idarəetmə" və "açıq hökumət" prinsiplərinə uyğun olmaqla, dövlət idarəetməsinin dünya standartlarında həyata keçirilməsini təmin edir. Davos İqtisadi Forumunun "Qlobal Rəqabətlilik 2019" hesabatına əsasən, Azərbaycan 140 ölkə arasında "Dövlət tənzimlənməsinin yükü" alt-indikatoru üzrə əvvəlki illə müqayisədə 3 pillə irəliləyərək, 12-ci yerdə qərarlaşıb və Avstriya, Belçika və Danimarka kimi ölkələri geridə qoyub. Təkcə bu fakt onu göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə effektiv dövlət-idarəetmə aparatı formalaşıb.

Dövlətimizin başçısı biznes mühitini təkmilləşdirmək, davamlı iqtisadi inkişafa nail olmaq, infrastrukturu və insan kapitalını inkişaf etdirmək, Azərbaycanın dünya iqtisadiyyatında mövqelərini gücləndirmək və struktur islahatları aparmaqla ölkənin tarazlı inkişafını təmin edir. Bu struktur islahatları nəticə etibarilə məhsuldarlığın artırılması, ölkəyə daha çox investisiya cəlb olunması və yeni iş yerlərinin yaradılması deməkdir.

***"Səs" Analitik Qrupu***




# Dubayda Azərbaycan Ticarət Evi açılıb





***Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, ölkəmizdə istehsal olunan məhsulların ixracının təşviqi və genişləndirilməsi, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması, satışının təşkili və əlaqələndirilməsi məqsədilə xarici ölkələrdə ticarət evlərinin yaradılması prosesi davam etdirilir.***

Dünən Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində yerləşən məşhur "The Mall" Ticarət Mərkəzində Azərbaycan Ticarət Evi açılıb. İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin BƏƏ bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, yerli məhsullarımızın bu ölkədə satışını təşkil edəcək, sahibkarlar arasında bu sahədə əlaqələndirməni həyata keçirəcək.

Ticarət Evində Azərbaycan şirkətlərinin müxtəlif növ məhsullarının sərgisi təşkil olunub. Daimi fəaliyyət göstərəcək sərgidə 33 Azərbaycan şirkətinin istehsal etdiyi 600-dən çox məhsul, o cümlədən meyvə və tərəvəzlər, quru meyvələr, fındıq, çay, mürəbbə, meyvə şirələri, mineral sular, limonadlar, konserv məhsulları, bitki yağları, süd və süd məhsulları, qənnadı məmulatları, kosmetik məhsullar və sair nümayiş etdirilir. Ticarət Evində Azərbaycanın zəngin mətbəxini təqdim edən restoran da fəaliyyət göstərir.

Azərbaycan Ticarət Evinin fəaliyyətə başlaması ilə əlaqədar keçirilən tədbirdə iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti, BƏƏ-nin rəsmi şəxsləri və iş adamları iştirak edib.

Ş.Mustafayev BƏƏ-də Azərbaycan Ticarət Evinin açılmasının dövlət başçılarının ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına verdikləri böyük önəmin, Birləşmiş Ərəb Əmirliklərində Azərbaycan məhsullarına olan marağın göstəricisi olduğunu vurğulayıb. Bildirib ki, qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslanan Azərbaycan-BƏƏ əlaqələri uğurla inkişaf edir.

Nazir qeyd edib ki, Azərbaycanın xarici ölkələr üzrə ilk ticarət nümayəndələrindən biri də məhz Birləşmiş Ərəb Əmirliklərinə təyin edilib, 2017-ci və 2018-ci illərdə Dubay, Əbu-Dabi və Şarca şəhərlərinə ixrac missiyaları təşkil olunub: "Hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, nəqliyyat, xidmət sahələrində 290 BƏƏ şirkəti fəaliyyət göstərir. İndiyədək Azərbaycanla BƏƏ arasında müxtəlif sahələrdə əməkdaşlığa dair 30-dan çox sənəd imzalanıb".

Azərbaycan və BƏƏ arasında ticarət əlaqələrinin inkişafını vurğulayan Ş.Mustafayev deyib ki, ötən ilin 11 ayında 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ölkələrimiz arasında ticarət dövriyyəsi 51 faiz, ixrac 31 faiz artıb. Ölkələrimiz investisiya qoyuluşu sahəsində də uğurlu əməkdaşlıq edir. İndiyədək BƏƏ Azərbaycana 2,1 milyard dollar, Azərbaycan isə BƏƏ-yə 330 milyon dollar investisiya yatırıb.

Birləşmiş Ərəb Əmirliklərinin iqtisadiyyat naziri Sultan Bin Saeed Al Mansoori Dubayda Azərbaycan Ticarət Evinin fəaliyyətə başlamasının ikitərəfli iqtisadi əlaqələrin inkişafında mühüm addım olduğunu, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və işgüzar münasibətlərin inkişafında əhəmiyyətini vurğulayıb, qarşılıqlı iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətlərinə dair fikirlərini bölüşüb.

Sonra tədbir iştirakçıları Azərbaycan Ticarət Evi və burada daimi fəaliyyət göstərən Azərbaycan məhsullarının sərgisi ilə tanış olublar. BƏƏ-də açılan "Azərbaycan Ticarət Evi" ölkəmizin xaricdə yaradılmış sayca 7-ci ticarət evidir. Həmçinin Birləşmiş Ərəb Əmirliklərində Azərbaycanın Ticarət Nümayəndəliyinin ofisi açılıb. İqtisadiyyat naziri Ş.Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti və BƏƏ rəsmiləri Ticarət Nümayəndəliyinin ofisi ilə tanış olublar.

# Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib




***Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. Toplantını açan komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib.***

Xəzər rayonu, Binə Bələdiyyəsinin sədri H.Həmidovun "ARAMA" jurnalına qarşı şikayətini nəzərdən keçirən komissiya üzvləri müəyyən ediblər ki, özünü "ARAMA" jurnalının əməkdaşları kimi qələmə verən şəxslər davranışlarında sui-istifadə hallarına yol vermiş, şəxsi xarakterli mübahisələrinin həlli üçün jurnalist adından istifadəyə cəhd göstərmişlər. "ARAMA" jurnalına MŞ adından ciddi xəbərdarlıq edilib.

Bakı şəhər sakini, idmançı Fəridə Əzizovanın "Open.az" saytına qarşı şikayətinin müzakirəsi zamanı müəyyənləşdirilib ki, sayt əməkdaşları Fəridə Əzizova və onun qohumu Aysel İsgəndərova barədə hazırlayıb yaydıqları xəbərlərdə ciddi xətalara yol veriblər. Belə ki, informasiya qondarma faktlar üzərində qurulmuş, dəqiqləşdirilmə üçün heç bir cəhd göstərilməmişdir, qarşı tərəfin rəyi öyrənilməmişdir. Sayt redaktorunun mövzu üzrə izahını nəzərə alan Komissiya üzvləri, saytda təkzib verilməsi, narahatlıq doğuran məqamların aradan qaldırılması üçün müvafiq addımlar atılması yönündə rəy veriblər.

İclasda Vətəndaş Quliyev Şakir Sabir oğlunun və Azərbaycan Dövlət İqtisad Universitetinin - UNEC-in professor-müəllimlərinin "Tezadlar.az" saytına qarşı şikayətləri də araşdırılıb. Komissiya üzvlərinə ünvanlanmış müraciətdə iddia olunub ki, saytda UNEC barədə qısa müddət ərzində 200-ə yaxın məqalə dərc edilib. İddiada qeyd edilib ki, yayımlanmış məqalələrdə böhtan xarakterli məqamlar yer tutub, qarşı tərəfin rəyi isə öyrənilməyib, balans prinsipi pozulub. Saytın baş redaktoru Asif Mərzili isə bildirib ki, hazırlanmış məqalələrdə balans prinsipinin qorunmasına, qarşı tərəfin mövqeyinin öyrənilməsinə cəhd göstərilib, amma qarşı tərəfdən cavab almaq mümkün olmayıb. Bununla yanaşı, Komissiya müəyyən edib ki, son vaxtlar "Tezadlar.az" saytı barədə MŞ-yə gələn şikayətlər intensivləşib, şikayət doğuran materiallarda "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nın (AJPDQ) əksər prinsipləri pozulub. Asif Mərzili cavabında bildirib ki, bu şikayətlərin çoxu məqsədli şəkildə maraqlı şəxslər tərəfindən təşkil etdirilib. Komissiya üzvləri mübahisəli məqamların çoxluğunu, həm iddialarda, həm də verilən cavablarda boşluqların olduğunu, dəqiqləşdirilməyə ehtiyacın yarandığını nəzərə alaraq qərara gəliblər ki, qeyd edilən KİV-in fəaliyyətinin və şikayət doğuran materialların geniş araşdırılması üçün "Təzadlar" qəzeti və onun onlayn versiyası olan "Tezadlar.az" saytı üzrə materiallar MŞ-nin "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasına, monitorinq qrupuna yönləndirilsin.

Beyləqan rayon Təzəkənd kənd tam orta məktəbinin müəllimi Yusifova Gülnar Novruz qızı "Xeberman.com", "Doqruxeber.com," "Teref.az", "Azadqadin.az" və "Xeberaz.az" saytlarına qarşı şikayətinin araşdırılması zamanı sayt təmsilçiləri bildiriblər ki, şikayətçidə narahatlıq doğuran "Beyləqan məktəbində rəzalət" adlı məqaləni digər KİV-ə istinadən yayıblar. Amma həmin KİV barədə məhkəmə hökmünün çıxarıldığını və məqalədə əks olunan detalların yanlışlığı barədə məlumat aldıqdan sonra xəbərin yayımına xitam veriblər. Bu baxımdan mübahisə həll edilmiş sayılıb.

"Cənnət-M" MMC-nin direktoru Əhmədov Yaşar Misir oğlu və vətəndaş Əliyeva Zəminə Elman qızının "Olke.az" saytına qarşı müraciəti də araşdırılıb. Müəyyən edilib ki, sayt əməkdaları şikayət doğuran materialı məhkəmə sənədləri əsasında hazırlasalar da, əlavə edilən faktlarda və jurnalist şərhində ciddi təhriflərə yol veriblər. Məqalədə adı keçən şəxslərin mövqeyinin öyrənilməməsi nəticəsində balans prinsipi pozulub, obyektivlik gözlənilməyib. Komissiya qarşı tərəfə öz mövqeyini ifadə üçün şərait yaradılması, yanlış faktların aradan qaldırılması yönündə rəy verib.

## Ötən il Azərbaycanda əmtəəlik təbii qaz hasilatı 5,8 faiz artıb



Keçən il ölkədə əmtəəlik təbii qaz istehsalı 5,8 faiz artıb. Dövlət Statistika Komitəsindən bildirilib ki, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2018-ci ildə 47,7 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,5 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin neft sektorunda məhsul istehsalı 0,4 faiz artıb.

## "BakuBus" sərnişindaşımada istifadə edilən avtobuslar üçün ehtiyat hissələri alır



"BakuBus" MMC sərnişindaşımada istifadə olunan avtobuslar üçün ehtiyat hissələri alır. AZƏRTAC xəbər verir ki, MMC "Iveco" markalı avtobuslar üçün ehtiyat hissələrinin satın alınması üçün tender keçirir.

# Azərbaycanın inamlı inkişafı gələcəyə hesablanıb

*Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etməkdədir. Yola saldığımız 2018-ci il də Azərbaycan üçün uğurlu il kimi yadda qaldı. Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd etdiyi kimi, yola saldığımız ildə Azərbaycan inamlı inkişafını davam etdirmişdir və ölkəmizdə təhlükəsizlik tədbirləri təmin edilmişdir. Ötən ildə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan sərəncamlar, fərmanlar iqtisadi islahatları daha da dərinləşdirdi, iqtisadi sabitlik qorundu və ölkəmiz bir çox əhəmiyyətli layihələri reallaşdırdı.*



## MULTİKULTURAL MÜNASİBƏTLƏRİN DAVAMLILIĞI, ONUN BUGÜNKÜ İNKİŞAFI, BİLAVASİTƏ DÖVLƏT DƏSTƏYİNDƏN QAYNAQLANIR

Azərbaycan multikultural bir dövlətdir. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub-saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi. Tarixi İpək Yolunda yerləşən Azərbaycan ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır ki, ölkəmizdə multikulturalizm alternativi olmayan həyat tərzinə çevrilib.

Bu gün Azərbaycan, sözün həqiqi mənasında, dünyada tolerantlığa nümunə olan ölkədir. Bu, bütün dünyada qəbul olunur. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə malik olan multikultural cəmiyyətdir. Azərbaycan əhalisinin 96 faizi müsəlmandır. Ölkəmizdə müsəlmanlar, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. “Multikulturalizm İli” çərçivəsində keçirilən tədbirlər, dünyaya bir daha göstərdi ki, Azərbaycanda multikultural dəyərlər yaşayır. Bu dəyərlər insanları sülhə və dostluğa səsləyir.

Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir. Dünyada yəhudilərin azad şəkildə dini inanclarını icra etdiyi ölkələr içərisində Azərbaycan birinci yerdədir. Azərbaycan, demək olar ki, yəhudilərin İsraildən sonra ən azad dini icma şəklində fəaliyyət göstərdiyi bir ölkədir. Azərbaycanda 7 sinaqoq və 4 gürcü kilsəsi fəaliyyət göstərir. Hətta Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə baxmayaraq, Bakıda erməni kilsəsi qorunub-saxlanılır və bu gün də fəaliyyət göstərir. Təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir. Bu gün multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasi kurs, bütün sahələrdə olduğu kimi, multikultural mühitin möhkəmlənməsi, o cümlədən, tolerantlıq ənənələrinin güclənməsinə də töhfələrini verməkdədir.

## “BİZ BU İL DƏ MÜSƏLMAN ÖLKƏLƏRİ İLƏ ƏLAQƏLƏRİMİZİ MÜXTƏLİF İSTİQAMƏTLƏRDƏ İNKİŞAF ETDİRƏCƏYİK VƏ BELƏLİKLƏ, MÜSƏLMAN ALƏMİNDƏ BİZİM NÜFUZUMUZ, ÇƏKİMİZ, ROLUMUZ DAHA DA ARTACAQDIR”

Müsəlman aləmində çox böyük hörmət və nüfuza sahib olan Azərbaycanın islam həmrəyliyi ilə bağlı atdığı addımlar da önəmlidir. Bu, İslam Əməkdaşlıq Təşkilatı və eyni zamanda, bir çox müsəlman ölkələri tərəfindən çox yüksək qiymətləndirilir və bu sahədə verdiyimiz töhfə çox təsirlidir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2017-ci il Azərbaycanda “İslam Həmrəyliyi İli” elan olundu. Əsrlər boyu islam sivilizasiyasının əsas mərkəzlərindən biri olan Azərbaycan islam dininin yayılmasında və eyni zamanda, Müsəlman İntibahının bərqərar olmasında mühüm rol oynayıb. Dinlə bağlı sərt qadağaların mövcud olduğu Sovet dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçib. Ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər Məscidi inşa edilib. Bütün bu və ya digər amillərlə yanaşı, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının, İSESKO-nun, həmçinin, müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilib.

Təbii ki, islam dünyasının bir parçası olan Azərbaycan il ərizində dostluğun möhkəmlənməsinə, insani dəyərlərə, sülh və əmin-amanlığa, birgəyaşayışa öz töhfələrini verərək, sülhsevər siyasətini bir daha dünyaya bəyan etmiş oldu. Prezident çıxışında bildirdiyi kimi, bizim apardığımız siyasət islam aləmində həmrəyliyi və əməkdaşlığı möhkəmləndirir: “Həm ölkə daxilində, həm xaricdə bu istiqamətdə keçirdiyimiz tədbirlər islam birliyini daha da möhkəmləndirir. Təsadüfi deyil ki, keçən il Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir və Naxçıvan şəhəri bu şərəfli adı çox böyük uğurla daşımışdır. Biz bu il də müsəlman ölkələri ilə əlaqələrimizi müxtəlif istiqamətlərdə inkişaf etdirəcəyik və beləliklə, müsəlman aləmində bizim nüfuzumuz, çəkimiz, rolumuz daha da artacaqdır.”

Ötən il Şərqin ilk demokratik respublikası - Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən 100 il ötdü. Məlumdur ki, Azərbaycanın tarixində qürurverici bu hadisənin qeyd olunması ilə ilə bağlı Azərbaycan Respubliksının Prezidenti 2018-ci ili ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan etdi. İl ərzində həm ölkəmizdə, həm xaricdə bununla əlaqədar bir çox tədbirlər keçirildi.

## “NƏSİMİ İLİ”NİN ELAN OLUNMASI XALQIMIZIN MİLLİ DƏYƏRLƏRİNƏ, MƏDƏNİYYƏTİNƏ TARİXİNƏ VERİLƏN ÖNƏMİ BİR DAHA TƏSDİQLƏDİ

Bu il isə ölkəmizdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən “Nəsimi İli” elan olundu. Bu, dövlət başçısının xalqın milli dəyərlərinə, mədəniyyətinə tarixinə verilən önəmi bir daha təsdiqləmiş oldu. Məlumdur ki, 2019-cu ildə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi tamam olur. Bununla bağlı Prezident İlham Əliyevin məlum Sərəncamı ilə Nəsiminin 650 illik yubileyi dövlət səviyyəsində geniş qeyd olunacaq.

Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından olan İmadəddin Nəsimi Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir. Mütəfəkkir şairin dərin poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olub, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilmiş müstəsna əhəmiyyətli ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir.

Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir. Sənətkarın yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərmişdir.

Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış Ümummilli Lider Heydər Əliyevin adı ilə, bilavasitə bağlıdır. Məhz Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur.

Həmin dövrdən etibarən Nəsimi irsinin və bütövlükdə, klassik Azərbaycan mədəniyyətinin daha əhatəli araşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Nəsiminin yaradıcılığı artıq milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir. Azərbaycan ədəbiyyatı və incəsənətində Nəsiminin yaddaqalan obrazı yaradılmış, Bakının mərkəzində şairin əzəmətli heykəli ucaldılmışdır. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutuna Nəsiminin adı verilmişdir.

19 noyabr 2018-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda Nəsiminin büstünün açılış mərasimi olub. 2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin qeyd edilməsi və 2018-ci ilin sentyabr ayında ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının təntənəli şəkildə keçirilməsi ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsi hesab oluna bilər.

Ötən ilin sentyabrında Azərbaycanda ilk dəfə Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı keçirildi. Şərqin dahi şair və mütəfəkkirlərindən biri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığına həsr olunan, şeir və sənətin yaşadılması məqsədi daşıyan festival Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşdı. İdeyası Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya məxsus olan festival Nəsiminin fəlsəfi baxışlarını əks etdirən “Simadan - asimana” və “Zərrə mənəm, günəş mənəm...” devizi ilə keçdi. İmadəddin Nəsiminin adı həqiqət naminə, fikir azadlığı yolunda qəhrəmanlığın rəmzi kimi əbədiləşib, əsrlərdən bəri Şərq xalqlarının yaddaşında yaşamaqdadır.

Ölkə başçısının bu Sərəncamı mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə yüksək səviyyədə münasibətin daha bir təzahürüdür. “Nəsimi İli”nin elan olunması orta əsrlərin ən qüdrətli söz ustadlarından olan Nəsimi şəxsiyyətinin, Nəsimi irsinin dünya ictimaiyyətinə çatdırılması, onun ideyalarının təbliği baxımdan böyük önəm daşıyır. “Nəsimi İli” ölkə tarixində də önəmli iz buraxacaq, müasir Azərbaycan gəncliyi bu zəngin irslə daha yaxından tanış olacaqlar.

**ZÜMRÜD BAYRAMOVA**

# Yaxın Şərqdə yeni qüvvələr nisbəti: ABŞ-ın Suriyadan çəkilmə qərarının pərdəarxası

***Siyasətdə gözlənilməz qərarlar həmişə ola bilir. Bu dəfə dünyanı Donald Tramp təəccübləndirdi. O, Amerika qoşunlarının Suriyadan çıxarılacağını bəyan etməklə meydana çoxlu sayda suallar çıxardı. Hələ bu proses nə başlayıb, nə də başa çatıb. Ancaq ekspertlər onun geosiyasi nəticələri ilə bağlı proqnozlar verirlər. Onların təhlili göstərir ki, əslində, regionda geosiyasi vəziyyət olduqca mürəkkəbdir. Böyük dövlətlər kartlarını heç də açmırlar. Onların hərəkətləri daha çox qarşı tərəfin fikrini öyrənməyə yönəlmiş manevrləri xatırladır. Bu baxımdan yaranmış mənzərə xeyli düşündürücüdür. Belə görünür ki, Yaxın Şərqdə bütövlükdə ümumi geosiyasi mənzərəni dəyişə biləcək proseslər gedir. Onların mümkün nəticələri ekspertlər üçün maraqlıdır. Hansı qüvvələr nüfuzunu artıracaq? Bu vəziyyətə Amerika necə reaksiya verə bilər? Bu kimi suallara cavablar üzərində geniş dayanmağa ehtiyac gördük.***




## Trampın sürprizi: hansı məqsədi güdür?

ABŞ Prezidenti Donald Trampın Suriyadan Amerika hərbi kontingentinin çəkiləcəyi ilə bağlı bəyanatından sonra qlobal miqyasda bir çaşqınlıq yarandı. Müxtəlif ölkələr buna dərhal reaksiya verdilər. Hər şeydən öncə, aydın oldu ki, Amerikanın Yaxın Şərqdə geosiyasi təsiri son dərəcə güclüdür. Çünki hətta böyük dövlətlər belə sual etdilər: yaranacaq boşluq necə doldurulacaq? ABŞ-ın özündə isə siyasətçilər xeyli narahatdırlar. Bir qismi etiraz etdi, digərləri Vaşinqtonun strateji düşündüyünü ifadə etdi.

Rusiya ilə Fransanın reaksiyası da maraqlı oldu. Prezident Emmanuel Makron ABŞ dövlət başçısının qərarını tənqid edib onu məsuliyyətsiz adlandırdı. Dərhal da ifadə etdi ki, Fransa boşalan yeri doldurmağa hazırdır. Buna Suriyadakı əşirətlər təşkilatından etiraz oldu. Onlar Fransanı terrorçulara yardım etməkdə ittiham edib faktiki olaraq ona savaş mesajı verdilər.

Rusiya isə daha incə tərpəndi. Moskva öncə Vaşinqtonun verdiyi vədə əməl edəcəyinə şübhə ilə yanaşdığını bəyan etdi. Rusiya siyasiləri bəyan etdilər ki, Amerika rəhbərliyinin Suriyadan çıxmaq adı altında nələri nəzərdə tutduqları məlum deyil. Bu səbəbdən də hələ gözləmək lazımdır.

Bunların fonunda İran və Türkiyənin D.Trampın vədinə münasibəti daha çox maraq doğururdu. Maraqlıdır ki, İran susdu. Ciddi bir fikir bildirmədi. Bu o deməkdir ki, Tehran Amerikanın Suriyanı tərk etməsini istərdi, lakin buna əmin deyil. ABŞ qoşunlarının Suriyadan çıxarılmasını kompensasiya edəcək bir planın olacağına Tehran əmindir. Deyək ki, bu bənddə Moskva ilə Tehranın mövqeyi üst-üstə düşür.

Türkiyə isə daha coşqulu reaksiya verdi. Öncə mediada informasiya yayıldı ki, D.Trampı bu qərara təhrik edən Rəcəb Tayyib Ərdoğan olub. Türkiyə Prezidenti qətiyyətli və konkret mövqeyi ilə yüksək iradə nümayiş etdirməklə D.Trampa psixoloji təsir göstərərək ona Suriyadakı real vəziyyəti anlada bilib. O cümlədən R.T.Ərdoğan sübut edib ki, Türkiyə təkbaşına İŞİD-in olan-qalan hissəsini də darmadağın edə bilər.

Ancaq çox keçmədi ki, bu informasiyanın bir qədər şişirdilmiş olduğu aydınlaşdı. Çünki D.Tramp atdığı addımın arxasında duran məqamları anlatdıqca, mənzərə daha da konkretləşdi. Məsələnin bu tərəfinə bir qədər sonra qayıdacağıq. Burada isə onu vurulayaq ki, digər böyük dövlətlərdən fərqli olaraq, Ankara ABŞ-ın bu addımını birmənalı təqdir etdi. Yüksək səviyyədə ifadə edildi ki, Amerika strateji baxımdan doğru addım atıb və onu reallaşdırmaq gərəkdir. Ekspertlər sual edirlər: Türkiyə niyə D.Trampa inandı, halbuki, əksər böyük dövlətlər vəziyyətə şübhə ilə yanaşdılar?

Burada ilk növbədə Türkiyənin Suriya səhnəsindəki vəziyyəti real dəyərləndirməsi diqqəti çəkir. Amerikanın öz əsgərini nə zaman döyüş meydanından çəkməsindən asılı olmayaraq Ankara şans əldə edir. Birincisi, aydınlaşır ki, Vaşinqton terror qrupları ilə sona qədər yol getməyib uyğun geosiyasi şərtlər yarandıqda onlara arxa çevirə bilər. "Əl-Qaidə" və İŞİD-lə bağlı vəziyyətdə olduğu kimi. İkincisi, Türkiyə yaranmış vəziyyətdən istifadə edərək iki aspektdə avantaj əldə edir. Onlardan biri Suriyaya hərbi müdaxilə üçün əsasın yaranmasıdır, çünki bölgədə boşluq doldurulmalıdır və bunu niyə Suriyanın ən yaxın qonşusu etməsin? Əgər həmin statusa uzaq Rusiya və ya Fransa iddia edirsə, Türkiyə niyə iddia etməsin? Həm də Yaxın Şərqdə bu statusa iddia edə biləcək ikinci dövlət yoxdur. İran zatən təcrid olunub. Səudiyyə Ərəbistanı özünü nüfuzdan salıb. Misir o gücdə deyil. Qalır Türkiyə!

## Yeni liderlik uğrunda: yarış gərginləşir

İkinci məqam Türkiyənin geosiyasi güc olaraq əlinin güclənməsi ilə bağlıdır. Çünki Vaşinqton Suriyadan çəkilmək fikrindədirsə, bunun fonunda öncə Türkiyənin mövqeyi güclənir. Ankaranın fəallığı artır. Bunun əlaməti kimi Suriyanın daxilindəki bir sıra güclərin Türkiyəni dəstəkləyən bəyanatlar verməsini göstərmək olar. Onların sırasında Suriyanın şimalında yaşayan əşirətlərin (onların sayı 20-dir) birləşərək, təşkilat yaratması və Türkiyəni bölgəyə dəvət etməsini göstərmək olar. Silahlı qruplaşmalar içərisində də on minlərlə üzvü olan Azad Suriya Ordusunun Türkiyəni tam dəstəkləməsini göstərmək olar. Sadə əhali içərisində də Ankaraya yaxşı münasibəti olanlar az deyil.

Belə görünür ki, Rusiya və İran da Türkiyəinin aparıcı rolunu qəbul edirlər. Rusiya üçün burada ancaq müsbət cəhətlər var. Çünki supergüc kimi bütövlükdə Yaxın Şərqdə, o cümlədən Suriyada söz sahibidir. Türkiyə isə onunla bərabərdirsə, Moskva bundan yalnız udur. Ankara NATO üzvü olaraq Rusiya ilə Suriya məsələsində təhlükəsizliyi təmin edir. Eyni zamanda, regionun müsəlman əhalisi müsəlman türklərlə dost olanları normal qəbul edə bilər. Bunlarla yanaşı, Rusiya Türkiyə ilə bir sırada olmaqla böyük bir geosiyasi məkanda türk xalqlarının simpatiyasını qazanmış olur.

İran üçün də əlverişli şərait yaranır. İlk növbədə, Amerikanın yerində Türkiyə olsa, Tehran razı qalar. İrana qarşı sanksiyalarda Türkiyə qətiyyət nümayiş etdirib Tehranı müdafiə etdi. Bunlarla yanaşı, regionun iki nəhəng dövləti birgə hərəkət etmək şansı əldə edirlər. Məzhəb aspektində də İran Türkiyənin timsalında sünnilərə düşmən olmadığını göstərmiş olur. Nəhayət, iki dövlət arasında bütün istiqamətlərdə əlaqələr inkişaf edirsə, bu, hər iki tərəfə sərfəlidir.

Bütün bunlar İranı da Türkiyənin geosiyasi yüksəlişinə qarşı loyal olmağa sövq edir. Ərəb ölkələrinin bir neçəsi üçün də Türkiyənin regionda daha nüfuzlu olması sərfəlidir. Onlar Ankaranın daha ədalətli davrandığının fərqindədirlər. Həm də son illər Türkiyə qədər Fələstin məsələsində fəal olan ikinci müsəlman dövlətini görməyiblər.

Deməli, ABŞ-ın Suriyadan çəkilmə qərarı dolayısı və ya birbaşa Türkiyənin geosiyasi nüfuzunun artmasına yeni imkan yaradıb. Bu səbəbdən Vaşinqtonun Suriyadan hansı müddətdə əsgərlərini çəkəcəyindən asılı olmayaraq, Türkiyə üçün bu qərar əhəmiyyətlidir. Ankara hər şeyi ölçüb-biçərək D.Trampın qərarını alqışlayır.

Bu kontekstdə ekspertlər ABŞ-Türkiyə münasibətlərində yeni mərhələnin mümkünlüyünü ayrıca qeyd edirlər. Belə ki, Amerika mətbuatında ölkənin Yaxın Şərqdə başlıca müttəfiqinin Türkiyə olduğu haqqında silsilə məqalələrin dərc edilməsi təsadüfi deyil. Hər iki dövlətin rəsmi şəxsləri də təsdiq edirlər ki, problemlər həll olunur. Hətta 2019-cu ildə Donald Trampın Türkiyəyə səfəri nəzərdə tutulub.

İndi məsələyə regiondakı geosiyasi dinamikanın çalarları və D.Trampın yuxarıda vurğuladığımız addımları müstəvisində baxaq. Amerika Prezidenti Suriyadan çəkilmə qərarını verdikdən sonra gizli olaraq İraqa səfər etdi. Orada bəyan etdi ki, İraqdan çəkilmirlər və lazım olsa, çevik qüvvələr Suriyada əməliyyat keçirə bilərlər. Deməli, yüksək texnoloji imkanları nəzərə alsaq, ABŞ faktiki olaraq hərbi-təhlükəsizlik baxımından heç nə itirmir. Əvəzində, geosiyasi dividend qazanır. Belə ki, savaş meydanında digər böyük oyunçular - Rusiya, Türkiyə və İran qalır! Bundan kim udacaq? Onu zaman göstərəcək. Ancaq belə görünür ki, D.Tramp strateji baxımdan daha uzaqgörən addım atıb. Bu barədə ABŞ Konqresinin üzvləri də fikir bildirirlər.

Onu da vurğulayaq ki, regiondakı ərəb ölkələri artıq Bəşər Əsədi dəstəkləməyə başlayıblar. Sudan Prezidentinin Dəməşqə səfərindən sonra digərləri də hərəkətə gəliblər. Onlar bu ölkədə səfirliklərini açmağa hazırlaşırlar. B.Əsəd yenidənmi legimitləşir? Ərəb birliyi onu qəbul edirmi? Bu məsələlər də əhəmiyyətsiz deyil.

Vəziyyətə həmin kontekstdə yanaşdıqda görürük ki, Vaşinqton üçün əsas məsələ Suriyadakı kürd qruplaşmaları ilə münasibəti tənzimləmək olacaq. Bu bağlılıqda isə hələlik Amerikanın mesajı "kürd müttəfiqlərimizi müdafiə edəcəyik" kimidir! Bunun belə olub-olmadığı hələ bilinmir. Ancaq bir məqam aydın olur: Yaxın Şərqdə, o cümlədən Suriyada geosiyasi qüvvələr nisbəti dəyişir. Kimin xeyrinə və ya kimlərin xeyrinə? Bu suala birmənalı cavab vermək indi çətindir.

***Newtimes.az***

# "Yeni dünyanın çağırışları islahatları zəruri edir"

**"Azərbaycan dünyanın bir parçasıdır və dünyada baş verən islahat proseslərin hər birində ölkəmizin də öz payı var". Bu fikirləri olaylar.az-a "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Prezident İlham Əliyevin struktur dəyişiklikləri ilə bağlı verdiyi fərmanını şərh edərkən deyib.**



Onun sözlərinə görə, əslində, yeni və müasir dünyanın çağırışları bu islahatları zəruri edir və söz yox ki, beynəlxalq aləmdə islahatçı ölkə olaraq qiymətləndirilən Azərbaycan bu kimi mühüm proseslərdən kənarda qala bilməz: "Artıq, dünyanın yeni idarəçilik institutları formalaşır və belə bir formalaşma çevik, dinamik, həmçinin, yeni modellər tələbatını da özü ilə bir yerdə cəmiyyətə təqdim edir. Məhz bu baxımdan, dünyanın ən islahatçı ölkəsi kimi dəyərləndirilən Azərbaycan bu islahat modellərini beynəlxalq aləmə təqdim edərkən, deyərdim ki, analoqu olmayan yenilikçilik təşəbbüsləri ilə xüsusi diqqət cəlb edir. Hazırda dünya dövlətləri Azərbaycanın islahatçılıq modelindən yararlanaraq, bunu sözügedən proseslərdə icra edirlər ki, bu faktor beynəlxalq ictimai-siyasi gündəmdə brend olaraq qəbul edilməkdədir".

Siyasi ekspert hesab edir ki, ölkəmizdə struktur dəyişiklikləri daha öncəki illərə də təsadüf edib, davamlı xarakter alıb və eyni zamanda, hüquqi bazalar üzərində formalaşdırılıb. "Təbii ki, bu dəyişikliklər iqtisadiyyat, biznes mühitinin daha sürətli və rəqabətli inkişafına impuls verir, lakin islahatların daha bir istiqaməti hüquqi bazalar üzərində reallaşdırılmaqdadır. Misal üçün, əgər biz nəzərə alarsaq ki, ölkəmizdə 1993-cü ildən hazırkı dövrümüzə qədər referendumlar keçirilib və onların aralıq müddəti təqribən 7 ildən birə təsadüf edir, bu zaman belə bir qənaətə gələ bilərik ki, hər bir inkişafın təməlində hüquqi təkmilləşdirmə dayanır. Daha dəqiq ifadə edərsək, hüquqi baza təkmilləşdirilirsə, bu insan amilinə də öz müsbət təsirini göstərir. Nəticədə siyasi, ictimai, iqtisadi, sosial və digər sahələr həmin islahatlardan bəhrələnirlər. Yeni, idarəetmə funksiyaları modernləşdirilir, zərurətdən doğan tələblərə, çağırışlara müaviq addımlar atılır. Artıq Azərbaycanda aparılan ardıcıl islahatlar və ondan doğan mühüm tandem institusional şəkildə və daim yeniləşmə istiqamətində optimal gerçəkliyini nümayiş etdirməkdədir. Bu baxımdan, hesab edirəm ki, Prezident İlham Əliyevin struktur dəyişiklikləri ilə bağlı verdiyi mühüm qərarı həm də dünyaya verilən bir mesajdır ki, Azərbaycan bundan sonra da islahatçılıq yolunu davam etdirərək, bu istiqamətdəki liderlik mövqeyini qoruyub-saxlayacaq. O da əbəs deyil ki, dövlət başçımız öz çıxışında köhnə idarətmə sistemindən daha müasir və qlobal çağırışlara cavab verən çevik, yığcam, məqsədyönlü strukturlarla əvəzlənməsi barədə əhəmiyyətli fikirlərini bəyan etdi".

Ekspert həmçinin bildirib ki, Azərbaycanın dünya iqtisadiyyatında mövqelərini gücləndirmək və s. önəmli məqsədlər baxımından reallaşdırılan struktur islahatları ölkəmizin tarazlı inkişafının təminatında da yüksək keyfiyyətləri ilə müşahidə olunacaq, həmçinin, maliyyə yatırımlarının, sərmayələrinin qoyuluşuna geniş imkanlar yaradacaq. "Əlbəttə ki, reallaşdırılan proseslər çərçivəsində yeni iş yerləri də açılacaq ki, bu da insanlarımızın sosial rifah hallarının daha da yaxşılaşdırılmasına münbit şərait yaradır".

***Rövşən NURƏDDİNOĞLU***

## Hafiz Quliyev: "Nəsimi ili" elan edilməsi olduqca təqdirəlayiq haldır



Prezident İlham Əliyev tərəfindən 2019-cu ilin dahi Azərbaycan şairi İmadəddin Nəsiminin şərəfinə və əziz xatirəsinə ehtiram əlaməti olaraq, "Nəsimi ili" elan edilməsi olduqca təqdirəlayiq haldır. Bu sözləri AZƏRTAC-a Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyev deyib. "Bir incəsənət xadimi kimi bu qərarı ölkə başçısının milli dəyərlərimizə göstərdiyi böyük diqqətin təzahürü hesab edirəm. Eyni zamanda, "Nəsimi ili" ölkə prezidentinin, yaradıcılığa, ədəbiyyata, Azərbaycan mədəniyyətinə verdiyi dəyərin növbəti göstəricisi və nümunəsidir. Nəsimi ruhunun mübarizliyi, haqqı bütün varlığı ilə müdafiə etməsi, ilk növbədə, gənclərdə vətənpərvərlik ruhunun yüksəlməsinə öz müsbət təsirini göstərəcək", - deyə H.Quliyev bildirib.

O əlavə edib ki, dövlət başçısının bu qərarı mənəviyyatımıza, şeirə, sənətə, onların inkişafına ölkəmizdə nə qədər böyük diqqət göstərildiyinin bir daha əyani sübutudur: "Bu böyük mütəfəkkirin 650 illiyinin keçirilməsi haqqında Sərəncam və 2019-cu ilin "Nəsimi ili" elan edilməsi böyük ədibin yaradıcılığının çox ciddi şəkildə öyrənilməsi, araşdırılması, təbliğ edilməsi istiqamətində də böyük işlər görəcək. Nəsimi irsinin xalqımızın mənəviyyat xəzinəsində layiqli yerini tutması dünya çapında geniş şəkildə təbliğ olunacaq".

## Gürcüstanlı mer: 20 Yanvar Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini daha da gücləndirdi



Qanlı Yanvar faciəsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qırmağa yönəlmiş addım idi. Lakin imperiya qüvvələri və onların əlaltıları xalqın bu əzmini qıra bilmədilər. Əksinə, 20 Yanvar xalqın azadlıq ruhunu və mübarizə əzmini daha da gücləndirdi.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Gürcüstanın Laqodexi şəhərinin meri Condo Didiaşvili söyləyib. Mer deyib: "Gürcü xalqı da 1989-cu il aprelin 9-da müstəqillik uğrunda mübarizədə qurbanlar verib. O vaxt azərbaycanlılar bizim səsimizə səs verdilər. Bu gün Laqodexidə 20 Yanvar faciəsi qurbanlarının xatirəsini andıq. Bu, bizim həmrəyliyimizdir. Eyni zamanda, qəhrəmanlarımızın əziz xatirəsi qarşısında borcumuzdur".

## Cənubi Koreya qəzetlərində qanlı Yanvardan bəhs edən məqalələr dərc olunub


The Korea Herald
NATIONAL
Azerbaijan honors dead in independence struggle
MOST POPULAR
3 in 10 women say Korea is sexist: survey

Koreya Respublikasının nüfuzlu "The Korea Times" və "The Korea Herald" qəzetləri 1990-cı ildə Bakıda baş verən Yanvar hadisələrindən bəhs edən məqalələr yayıblar. AZƏRTAC xəbər verir ki, "Azərbaycan müstəqillik mübarizəsində ölənləri yad edir" və "Azərbaycan 1990-cı il qanlı Yanvar şəhidlərini xatırlayır" adlı məqalələrdə keçmiş sovet dövlətinin o vaxtkı rəhbəri Mixail Qorbaçovun əmri ilə azadlıq və suverenlik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının istəyini boğmaq üçün törədilən cinayətkar əməllərdən bəhs edilir. Bildirilir ki, 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıya yeridilmiş sovet qoşun birləşmələrinin törətdikləri qətllər zamanı uşaqlar, qadınlar, yaşlı insanlar daxil olmaqla, 147 mülki vətəndaş öldürülüb, 5 nəfər itkin düşüb, təxminən 800 nəfər yaralanıb, bir o qədər sakin qanunsuz həbs edilib.

Koreya qəzetləri yazır ki, sovet qoşunlarının həmin əməliyyatı bir çox beynəlxalq konvensiya və sənədin tələblərini pozub. Yazılarda həmin qanlı hadisələrin Azərbaycan xalqının azadlıq arzusunu boğa bilmədiyi vurğulanır, 1991-ci ilin oktyabrında Azərbaycanın öz müstəqilliyini bərpa etdiyi vurğulanır. Bildirilir ki, o vaxtdan bəri Azərbaycan xalqı hər il yanvarın 20-də azadlıq və müstəqillik yolunda qurban gedənlərin xatirəsini ehtiramla yad edir.

## "2019-cu ilin "Nəsimi ili" elan edilməsi tariximizə bir baxışdır"



"Ölkə başçısının sərəncamı ilə 2019-cu ilin "Nəsimi ili" elan edilməsi Azərbaycan millətinin duyğularının ortaya qoyulması, ədəbiyyata, mənəviyyata, tariximizə bir baxışdır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, tarixçi alim Fəzail İbrahimli deyib. Ölkəmizdə hər ilin mühüm tarixi hadisələrə, şəxsiyyətlərə həsr edilməsi ənənəsini yüksək qiymətləndirən deputat söyləyib ki, burada məqsəd həmin məsələnin və ya şəxsin il ərzində daha da gündəmdə qalması, o sahəyə daha çox diqqətin ayrılmasıdır.

Dahi şairin zəngin irsə malik olduğunu deyən F. İbrahimli deyib ki, Nəsimi humanist ideyaları təbliğ edib, şeirlərində insan ləyaqətinə, onun qüdrətinə olan yüksək inamından söz açıb. Nəsimi yaradıcılığının bu xüsusiyyətləri növbəti şair nəslinin formalaşmasında mühüm rol oynayıb. O, əsas etibarilə ana dilində yazıb yaratmaqla özündən sonra gələn azərbaycandilli şairlərin yetişməsi üçün zəmin yaratmış, bununla da XIV əsrdən sonra Azərbaycan ədəbi dilinin inkişafına məqsədyönlü istiqamət vermişdir. Nəsiminin əsərləri hələ sağlığında Azərbaycanla yanaşı, Yaxın Şərq, İraq, Kiçik Asiya və Suriyada, eləcə də Orta Asiyada geniş şöhrət qazanıb".

***Nailə Məhərrəmova***

## SOCAR: Dənizdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məqsədilə 1700-dən çox neftçi təxliyə ediləcək



Dənizdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məqsədilə 1700-dən çox neftçi təxliyə olunacaq. SOCAR-dan AZƏRTAC-a bildirilib ki, yanvarın 17-də hava şəraitinin kəskin pisləşməsi ilə əlaqədar şirkət üzrə təhlükəsizlik tədbirləri maksimum dərəcədə gücləndirilib, istehsalatda qəzaların baş verməməsi üçün növbədə qalması zəruri olan işçilərdən başqa bütün əməkdaşlar təxliyə edilir. Hava və dəniz nəqliyyatları vasitəsilə ümumilikdə 1700-dən çox neftçinin sahilə çıxarılması üçün aparılan tədbirlər artıq başa çatdırılır.

# Aqrar islahatlar daha böyük uğurlar vəd edir



**Aqrar islahatlar ərzaq təhlükəsizliyinin təminatına, məşğulluq səviyyəsinin artmasına, rifah halının yaxşılaşdırılmasına əsaslı zəmin yaradır**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan kompleks islahatlar davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin edir. Əbəs yerə deyil ki, Azərbaycan "dünyada ən islahatçı ölkə" imicini qazanıb və bu imicin formalaşmasını ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən və reallaşdırılan kompleks islahatlar şərtləndirir.***

Azərbaycan Prezidenti İlham Əliyev 14 yanvar 2019-cu il tarixində "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Fərmana müvafiq olaraq, artıq Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi yaradılıb. Kənd Təsərrüfatı Nazirliyi yanında olan Dövlət Fitosanitar Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki Nəzarət Xidmətinin əsasında yaradılan Aqrar Xidmətlər Agentliyi aqrar sahədə göstərilən dövlət xidmətlərinin optimallaşdırılması və səmərəliliyinin artırılması, həmin dövlət xidmətlərinin daha az həcmdə resurs sərf edilməklə həyata keçirilməsi, dövlət vəsaitinə qənaət edilməklə bu sahədə inzibati- idarəetmənin təkmilləşdirilməsi, xidmətlərin həyata keçirilməsində keyfiyyətə nəzarətin təşkili, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi, elektron xidmətlərə keçidin sürətləndirilməsi və vətəndaş məmnunluğunun artırılması məqsədilə yaradılıb.

## Aqrar islahatlar səmərəliliyin daha da artırılmasına xidmət edir

Baytarlıq və fitosanitar xidmətlərinin təşkilini, idarə edilməsini, keyfiyyətinə nəzarəti həyata keçirən, bu sahədə Dövlət- Aqrar İnkişaf Mərkəzlərinin (DAİM) fəaliyyətini əlaqələndirən, kənd təsərrüfatı texnikasının qeydiyyatını, texnikaya nəzarət fəaliyyətini və bu sahədə dövlət xidmətlərini DAİM vasitəsilə həyata keçirən agentlik, aqrokimya, toxum və bioloji laboratoriyalar, sort sınaq məntəqələri və toxum sertifikatlaşma mərkəzlərində xidmətlərin təşkilinə və göstərilməsinə nəzarət edir. Bir sözlə, sadalananlar təsdiq edir ki, əsas məqsəd idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq və idarəetməni iqtisadi inkişafın yeni mərhələsinə uyğunlaşdırmaqdır. Göründüyü kimi, iqtisadi inkişaf və idarəetmə arasında tarazlıq, qarşılıqlı əlaqə və bir-birini tamamlama prinsipləri qorunur.

İslahatlar çərçivəsində vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərinin daha əlçatan və keyfiyyətli olması vacibdir. Sözsüz ki, biznes mühitini təkmilləşdirmək davamlı iqtisadi inkişafa nail olmaq deməkdir və islahatlar, məhz bu inkişafa xidmət edir. Təbii ki, müvafiq islahatlar nəticə etibarilə məhsuldarlığın artırılmasına, ölkəyə daha çox investisiya cəlb olunmasına və məntiqi olaraq yeni iş yerlərinin yaradılmasına köklü zəmin yaradır.

## Aqrar sektorun inkişafına olan diqqət heç də təsadüfi deyil

Hazırda kənd təsərrüfatı Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunda böyük çəkiyə malikdir. Ölkənin artan inkişaf göstəriciləri arasında kənd təsərrüfatının xüsusi çəkisinin olması da təsadüfi deyil. Əhalinin ərzağa olan tələbatının daxili imkanlar və potensiallar hesabına ödənilməsi, idxaldan asılılığın minimuma endirilməsi üçün kənd təsərrüfatının inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Məhz buna görə də, kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində bu vaxta qədər mühüm islahatlar reallaşdırılıb və inkişafın davamlı şəkildə olması üçün bu proses göründüyü kimi davam edir.

Kənd təsərrüfatının inkişafı dedikdə, sözsüz ki, ilk növbədə, aqrar sektorun inkişafı nəzərdə tutulur və bu baxımdan aqrar sektorun inkişafına olan diqqət heç də təsadüfi deyil. Eyni zamanda, kənd təsərrüfatı neft və tikinti sahələrindən sonra üçüncü ən iri sahə olmaqla vətəndaşların məşğulluğunun artırılması baxımından da mühüm əhəmiyyət daşıyır.

Azərbaycanda özəl sektorda dinamik inkişaf ölkəmizdə sahibkarlığın inkişafı istiqamətində görülən işlərin, aparılan islahatların məntiqi nəticəsidir. Rəqabətqabiliyyətli məhsulların istehsalının artırılması ən vacib prioritetlərdəndir və vətəndaşların istehsal olunan ən yüksək keyfiyyətli məhsullarla təmin edilməsini şərtləndirir. Müşahidələr və statistik göstəricilər təsdiq edir ki, son illər kənd təsərrüfatı sürətlə inkişaf edib, adambaşına düşən ərzaq məhsullarının istehsalı xeyli artıb və bütün bunlar aqrar islahatlar sayəsində reallaşdırılıb.

## Qazanılan uğurlar aparılan islahatların məntiqi nəticəsidir

Hazırda dünyada iqtisadi böhran davam edir və bir çox ölkələrdə biz bunun şahidiyik. Dünya ölkələrinin heç də hamısı bu böhranın mənfi təsirlərindən qoruna bilmir. Ermənistan kimi səfalət içərisində olan "cırtdan" dövlətlər bir tərəfə, hətta elə fövqəldövlətlər var ki, bu böhran səbəbiylə külli miqdarda xarici borclanma ilə qarşılaşıb. Lakin Azərbaycanda tamamilə, əksinə olaraq, dinamik inkişaf müşahidə edilməkdədir və hətta qlobal hesabatlarda da bu, öz əksini tapır.

Respublika Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi siyasət, şəxsən ölkə başçımızın rəhbərliyi ilə aparılan islahatlar sayəsində aqrar sahədə, kənd təsərrüfatında böyük uğurlar qazanılır, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında, yoxsulluğun aradan qaldırılmasında, əhalinin məşğulluğunun artırılmasında və maddi rifahının yaxşılaşdırılmasında konkret nailiyyətlər əldə edilir. Bir sözlə, aqrar sahədə, kənd təsərrüfatında qazanılan uğurlar, əldə edilən nailiyyətlər, qlobal hesabatlarda Azərbaycanın reytinqlərinin ilbəil yaxşılaşması ölkə başçısının rəhbərliyilə aparılan islahatların məntiqi nəticəsidir. Hazırda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan son islahatlar, xüsusilə, aqrar sahədə aparılan islahatlar yaxın gələcək üçün daha böyük uğurlar vəd edir və ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına, işsizliyin azalmasına, məşğulluq səviyyəsinin artmasına, rifah halının daha da yaxşılaşdırılmasına əsaslı zəmin yaradır.

*İnam HACIYEV*

# Vüqar Bayramov: "Struktur islahatları biznes mühitinin daha da yaxşılaşmasına müsbət təsir göstərəcək"

***Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman müasir dövrün yeni çağırışlarına uyğun idarəetmə sistemində çevikliyin artırılması baxımından mühüm əhəmiyyət daşıyır.***



Bu sözləri AZƏRTAC-a iqtisadçı ekspert Vüqar Bayramov deyib. Ekspert qeyd edib ki, yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısının bildirdiyi kimi idarəetmə sistemində yeni islahatlar mərhələsi başlanıb. Bu isə dərinləşmiş iqtisadi islahatlar fonunda Azərbaycanın 2019-cu ilə yeni struktur islahatları ilə başlamasından xəbər verir.

Azərbaycanda həyata keçirilən islahatların strukturun təkmilləşdirilməsi və qərarların qəbulunun çevikliyini də özündə ehtiva etdiyini deyən V.Bayramov diqqətə çatdırıb ki, ölkə başçısının mövcud strukturu təkmilləşdirərək yeni dövrün çağırışlarına uyğunlaşdırması nəticəsində idarəetmə sistemində çeviklik artırılır: "Təbii ki, bu kontekstdə dövlət idarəçiliyinin dəyişdirilməsi struktur islahatları çərçivəsində həyata keçirilən addımdır. Bu, dövlət idarəetmə strukturunun təkmilləşdirilməsində daha çevik qərarların qəbul edilməsi üzrə şəraitin yaradılmasına imkan verir. Fərmanın ən böyük üstünlüyü müasir standartlara uyğun idarəetmə strukturlarının yaradılması ilə bağlıdır. Aydındır ki, dərinləşmiş islahatlar yeni struktur islahatlarını daha aktuallaşdırır. Dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı imzalanan son Fərman da məhz iqtisadi islahatların səmərəliliyinin daha da artırılması üçün baza formalaşdırmaqdadır. 2019-cu ildə həm dövlət başçısnın tapşırıq və tövsiyələrinə, həm da Strateji Yol xəritələrinə uyğun olaraq islahatların daha da dərinləşdirilməsi nəzərdə tutulur. Deməli, dərinləşmiş islahatlar bu il qeyri-neft sektorunun artım tempinə də öz müsbət təsirini göstərəcək. Bu isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın azaldılması kimi hədəflərə daha tez nail olmasına şərait yaradacaq. Nəticə etibarilə, son illər idarəetmə aparatının səmərəliliyinin artırılması istiqamətində addımların atılması və Azərbaycanda qeyri-neft sektorunun inkişafına hədəflənən islahatların struktur islahatları ilə müşayiət olunması xüsusilə qeyd olunmalıdır".

Ekspert deyib ki, bir sıra dövlət qurumlarının ləğv edilməsi və ya birləşdirilməsi qərarların qəbulu prosedurunu da xeyli sadələşdirəcək. Bu da nəticə etibarilə idarəetmə sisteminin optimallaşmasına şərait yaradacaq: "Müasir çağırışlar bir daha təsdiq edir ki, idarəetmədə prosedurlarının sayının azaldılması islahatların səmərəliliyinə birbaşa təsir göstərir. Bu baxımdan da, yeni struktur islahatları biznes mühitinin daha da yaxşılaşdırılmasına birbaşa müsbət təsir göstərəcək. Bu kontekstdən, son islahat Azərbaycanda həyata keçirilən və birbaşa qeyri-neft sektorunun inkişafına, eləcə də investisiya mühitinin yaxşılaşdırılmasına, idarəetmə aparatının çevikliyinin artırılmasına, idarəetmədə səmərəliliyin təşkilinə hesablanan islahatların tərkib hissəsidir".

V.Bayramovun sözlərinə görə, bütün bu islahatlar dövlət büdcəsində vəsaitlərə qənaət edilməsi və vəsaitlərin səmərəli xərclənməsi baxımından da vacibdir. Fiskal konsolidasiya fonunda idarəetmə xərclərinin optimallaşdırılması büdcə vəsaitlərinin səmərəliliyinin artırılmasına imkan yaradır. Bu, optimal xərclər, həmçinin daha səmərəli maliyyə mexanizminin formalaşdırılması baxımından da vacibdir. "Prezidentin bu Fərmanı bir daha təsdiq edir ki, Azərbaycanda iqtisadi islahatlar həm struktur, həm institusional olaraq davam etdirilir. Məqsəd mövcud postneft dövrünün prioritetlərinə uyğun iqtisadiyyatın şaxələndirilməsinə hədəflənmiş islahatların struktur islahatları ilə dəstəklənməsinə nail olmaqdır. Nəticədə bu, idarəetmədə bir çeviklik formalaşdırır, proseslərə idarəetmə orqanlarının daha çevik, tez bir zamanda səmərəli reaksiya verməsini təmin edir. Bütövlükdə bu, yalnız iqtisadi inkişaf deyil, həm də bütövlükdə cəmiyyətin inkişafı və ölkənin daha müasir, çevik idarəetmə sisteminə transformasiyası baxımından olduqca vacibdir", - deyə ekspert bildirib.

# Struktur dəyişikliyi islahatların tərkib hissəsidir

## İctimaiyyət ölkə Prezidentinin bu yöndəki son addımlarını yüksək qiymətləndirir

**2019-cu il yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən struktur islahatları istiqamətində mühüm fərmanlar imzalanıb. Prezidentin imzaladığı Fərmana əsasən, ölkədə dövlət idarəetmə strukturunu optimallaşdırmaq, müdafiə sənayesinin inkişafının dayanıqlılığını təmin etmək, bu sahədə idarəetmə mexanizmlərini daha da təkmilləşdirmək, habelə sənayeləşmənin yeni mərhələsində mövcud potensialdan səmərəli istifadə etməklə, Azərbaycanın regionda silah istehsal edən əsas sənaye mərkəzlərindən birinə çevrilməsinə nail olmaq məqsədilə Müdafiə Sənayesi Nazirliyinin əsasında "Azərsilah" ASC yaradılır.**

Bununla yanaşı, Prezident İlham Əliyev "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Aqrar sahədə göstərilən dövlət xidmətlərinin optimallaşdırılması və səmərəliliyinin artırılması, həmin dövlət xidmətlərinin daha az həcmdə resurs sərf edilməklə həyata keçirilməsi, dövlət vəsaitinə qənaət edilməklə bu sahədə inzibati idarəetmənin təkmilləşdirilməsi, xidmətlərin həyata keçirilməsində keyfiyyətə nəzarətin təşkili, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi, elektron xidmətlərə keçidin sürətləndirilməsi və vətəndaş məmnunluğunun artırılması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi yanında olan Dövlət Fitosanitar Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki Nəzarət Xidmətinin əsasında Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi yaradılıb. Söhbət etdiyimiz müsahiblərimiz Prezident İlham Əliyevin Fərmanı ilə aparılan kadr və struktur dəyişikliklərini 15 ildir ki, həyata keçirilən islahatların uğurlu davamı olduğunu bildirdilər.

### Millət vəkili Eldəniz Səlimov: "İslahatlar hər zaman olub, bu gün də var, sabah da olacaq"



- Hələ ötən əsrin 90-cı illərindən başlanan struktur və kadr islahatları ölkə Prezidenti İlham Əliyevin 15 illik hakimiyyəti dövründə də uğurla və mərhələli şəkildə davam etdirilib və etdirilməkdədir. Son fərmanlar, yeni bir neçə dövlət qurumun ləğvi, birləşdirilməsi, həmçinin, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin yaradılması isə illərdir davam edən və etdirilən islahatlar prosesinin növbəti mərhələsi və tərkib hissəsidir. Bunları ayrılıqda götürmək olmaz. Çünki bəzən elə təsəvvür yaradılmağa çalışılır ki, guya indiyəcən bu cür proseslər, islahatlar, idarəetmənin təkmilləşdirilməsi olmayıb və yaşanmayıb. Bu, belə deyil, bu, düzgün yanaşma sayıla bilməz. Bu təkmilləşdirmələr, kadr, struktur islahatları hər zaman olub, bu gün də var və sabah da olacaq. Bəzən asta, bəzən isə daha sürətli şəkildə, özü də dövrün və zamanın reallıqlarına uyğun şəkildə. Eyni zamanda, sosial şəbəkələrdə gedən müzakirələrdə bir zaman dövləti, hakimiyyəti struktur islahatları aparmamaqda haqsızcasına "ittiham" edənlər, indi valı tərsinə çevirərək, bu qurumların ləğvinə qarşı çıxır, guya orada çalışanların halına yandıqlarını nümayiş etdirməyə çalışırlar. Əslində, onların niyyəti və məqsədi bəllidir. Çünki od olmayan yerdən tüstü çıxarmaq. Amma bu faydasız və səmərəsizdir. Onlara da məsləhətim budur ki, artıq boş-boş işlərlə məşğul olmasınlar, ömürlərində heç olmasa bircə dəfə gedib faydalı bir işin qulpundan yapışsınlar. Həmin insanlar işsiz qalmayacaqlar, necə ki, bundan əvvəl ləğv edilən bir sıra qurumların işçiləri, əməkdaşları işsiz-gücsüz qalmayıblar. Onlar da öz ixtisaslarına, öz qabiliyyət və bacarıqlarına uyğun şəkildə işlə təmin olunacaqlar. Bu, birmənalıdır. Odur ki, ölkə Prezidentinin bu yöndəki son addımlarını da müsbət və yüksək qiymətləndirməklə yanaşı, bu prosesin bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə edirəm.

### "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova: "Azərbaycan dövləti islahatlar yolunu seçib "



- Son bir neçə ildə Azərbaycanda sosial və iqtisadi sahələrdə dərin islahatlar prosesinə başlanıldı. Artıq bu islahatların ilkin müsbət nəticələri özünü göstərməkdədir. Qeyd olunan tədbirlərin davamı olaraq, idarəetmə strukturunun təkmilləşdirilməsi vacib idi. Prezident İlham Əliyevin imzaladığı fərmanlarla bu prosesə start verildi. Bir-birini təkrarlayan və ya mövcudolma əhəmiyyətini itirən bir sıra strukturlar ləğv edildi. Ümumiyyətlə, bu gün dünyada inkişaf etmiş dövlətlərin hər biri mövcud problemlərin həlli, çağırışlara dərhal reaksiya vermək iqtidarına malik çevik idarəetmə mexanizminin tətbiqinə çalışır. Azərbaycanda vaxtilə bir sıra qurumların yaradılması bəlkə də həmin dövrün tələblərinə uyğun olaraq, zərurətdən irəli gəlirdi. Lakin artıq zaman və tələblər dəyişib. Prezident İlham Əliyevin də, bəyan etdiyi kimi, Azərbaycan dövləti islahatlar yolunu seçib. İnzibati-idarəetmə sahəsində bir-birini təkrarlayan, mövcudolma əhəmiyyətini itirmiş lüzumsuz qurumların ləğvi prosesi də müasir dövrün çağırışlarına Azərbaycan rəhbərliyinin operativ reaksiyasının göstəricisidir. Bu, həm də dövlət büdcəsindən idarəetmə aparatının saxlanılmasına yönəldilən vəsaitin əhəmiyyətli dərəcədə qənaət olunması deməkdir. Ölkəmiz dünyada ən çox islahatlar aparan dövlətlərin reytinqində ən yüksək yerlərdən birini tutur. Prezidentin məlum Fərmanı ilə dövlət- idarəetməsi sahəsində təkmilləşdirmənin aparılması da Azərbaycanın sürətli iqtisadi inkişafı prosesinə öz töhfəsini verəcək.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "İslahatlar digər sahələri də əhatə edəcək"



- Ölkə Prezidenti indiki idarəçilik sisteminin köhnəldiyi, dövlət aparatının şişirdildiyini və effektiv olmadığını Nazirlər Kabinetinin ötən həftəsonu keçirilən müşavirəsindəki çıxışında bildirmişdi. Prezidentin bu ciddi siqnalı özünü çox gözlətmədi və məlum Sərəncamı ilə nazirlik, agentlik və komitələrin ləğv olunmasına başlandı. Hesab edirəm ki, bu ölkə Prezidentinin idarəçilik sahəsində apardığı islahatların növbəti mərhələsinin başlanğıcıdır. Bundan əvvəl də Cənab Prezident dövlət idarəçiliyi sahəsində çox mühüm islahatlar aparmışdır. Prezidentin növbəti bu addımı çevik idarəçiliyin formalaşmasına yeni dövrün tələblərinə cavab verən idarəetmə mexanizminin yaranmasına yönəlib. Dövlət idarəçiliyi sahəsində bu cür islahatların aparılması təqdirəlayiq bir haldır və alqışlanasıdır. Hesab edirəm ki, bu, hələ başlanğıcdır. Bir-birini tamamlayan müasir dövrün tələblərinə cavab verməyən bir çox strukturlar da yaxın gələcəkdə ixtisar ediləcək və ya digər qurumlarla birləşdiriləcəkdir. Bu, həm vətəndaşlarımızın rifahına və rahatlığına yönəlmiş bir addım olmaqla yanaşı, eyni zamanda, dövlət büdcəsinin artıq xərclərdən təmizlənməsinə də xidmət edəcəkdir. Hesab edirəm ki, bu islahatlar təkcə dövlət idarəçiliyi sahələrini deyil, digər sahələri də əhatə edəcəkdir.

**GÜLYANƏ**

# Çingiz Qənizadə: Struktur islahatları nəticəsində dövlət xidmətləri daha əlçatan və keyfiyyətli olacaq



***Azərbaycanda cəmiyyətin bütün sahələrində yeniləşmə, təkmilləşmə prosesi gedir. Bu da öz növbəsində, dövlət idarəçilik sisteminin köhnə formasından imtina etməyi və yeni, təkmilləşdirilmiş idarəçilik formasına keçidi zəruri edir.***

Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Çingiz Qənizadə bildirib. Deputat qeyd edib ki, Azərbaycanda dövlət idarəetmə orqanlarında ciddi struktur islahatlarının gözlənildiyini Prezident İlham Əliyev Nazirlər Kabinetinin yanvarın 11-də keçirilən iclasında bildirmişdi. Dövlətimizin başçısı daha çevik idarəetmə strukturunun yaradılması ilə bağlı işlərə başlanılacağını qeyd etmişdi. İclasdan üç gün sonra Prezident İlham Əliyev Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzaladı. Fərmana əsasən, bir çox dövlət qurumları ləğv edildi və ya digər qurumlara birləşdirildi. Prezidentin dövlət idarəçiliyində struktur islahatlarına başlaması zamanın tələbidir. Azərbaycan cəmiyyəti dövlətimizin başçısının bu addımını alqışlayır və dəstəkləyir.

Milli Məclisin deputatı qeyd edib ki, Azərbaycan dinamik və hərtərəfli şəkildə, uğurla inkişaf edən bir ölkədir və onun inkişafı daha çevik struktura malik idarəetmə tələb edir. Qazanılan bu uğurların davamlılığını təmin etmək üçün səmərəliliyi aşağı olan struktur vahidlərinin ləğv edilməsi, birləşdirilməsi və ya daha çevik mexanizmlərlə əvəzlənməsi doğrudan da bir zərurətə çevrilib. Bir-birini təkrarlayan, təxminən eyni istiqamətdə fəaliyyət göstərən dövlət qurumlarının olmasına həqiqətən də ehtiyac yoxdur. Prezident də vurğulayıb ki, daha çevik və səmərəli idarəçilik formasına keçməyin zamanı çatıb.

Çingiz Qənizadə qeyd edib ki, paralel strukturların ləğvi və mövcud strukturların yenidən təşkili büdcə vəsaitinə qənaət edilməsinə gətirib çıxaracaq. Struktur islahatları biznes mühitinin daha da təkmilləşdirilməsi, qeyri-neft ixracının genişləndirilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi ilə özünü doğruldacaq. Dövlət xidmətləri daha əlçatan və keyfiyyətli olacaq. İslahatlar sahibkarlığın və biznesin inkişafına daha çox fayda verəcək. Dövlətimizin başçısının həyata keçirdiyi struktur islahatları Azərbaycan Respublikasında dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsini, dövlət orqanlarının və qurumlarının fəaliyyətinin optimallaşdırılmasını və dövlət büdcəsi vəsaitindən səmərəli istifadəni təmin edəcək. Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə səmərəli dövlət idarəetmə aparatı formalaşdırılmaqla davamlı və tarazlaşdırılmış iqtisadi inkişaf təmin edilib.

## Vüqar Hüseynov: "Aqrar Xidmətlər Agentliyinin yaradılması optimallaşmanı təmin edəcək"



"Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 14 yanvar tarixli Fərman Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi aqrar siyasətin tərkib hissəsidir. Aparılan aqrar islahatlar kənd təsərrüfatının davamlı və uğurlu inkişafını təmin edir. Bunu AZƏRTAC-a açıqlamasında Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov deyib.

"Fərmana əsasən, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olmuş 4 qurumun - Dövlət Fitosanitar Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki Nəzarət Xidmətinin əsasında Aqrar Xidmətlər Agentliyi yaradılıb", - deyən V.Hüseynov bildirib ki, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi baytarlıq və fitosanitar xidmətlərin təşkilini, idarə edilməsini və keyfiyyətinə nəzarəti, kənd təsərrüfatı texnikasının qeydiyyatını, texnikaya nəzarət fəaliyyətini və bu sahədə dövlət xidmətlərini, aqrokimya, toxum və bioloji laboratoriyalar, sort sınaq məntəqələri, toxum sertifikatlaşma mərkəzlərində xidmətlərin təşkili və göstərilməsinə nəzarəti həyata keçirəcək.

Ləğv olunan qurumların digər funksiya, hüquq və vəzifələri də yeni Agentliyə keçir. Onun sözlərinə görə, nazirliyin tabeliyində olmuş 4 qurumun əsasında Aqrar Xidmətlər Agentliyinin yaradılması optimallaşmanı, çevik və səmərəli idarəetməni təmin edəcək. Həyata keçirilən islahatlar aqrar sektorda innovativ həllərin tətbiqinə imkan verəcək, elektron xidmətlərə keçidi sürətləndirəcək və şəffaflığı daha da artıracaq. İslahatlar nəticəsində aqrar xidmətlərdə vahid standartlar tətbiq olunacaq. Bu addımlar dövlət xidmətlərini fermerlər üçün daha əlçatan edəcək. Xidmətin keyfiyyətinə daim nəzarət olunacaq.

# 20 Yanvar - Qəhrəmanlıq salnaməsi”

*Nizami rayonunda 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar tədbir keçirilib*

***Dünən Nizami rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı ilə birgə 62 saylı məktəb-liseydə 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar “20 Yanvar - Qəhrəmanlıq salnaməsi” mövzusunda tədbir keçirilib.***

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsində şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra, tədbiri giriş sözü ilə açan məktəbin direktoru Mətanət Cabbarova 20 Yanvar faciəsinin, əsla unudulmadığını, bu qanlı hadisədə əli olanların tarix qarşısında cavab verəcəklərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, YAP Nizami rayon təşkilatının sədri Sədaqət Vəliyeva bildirib ki, 20 Yanvar faciəsi xalqımızın azadlıq əzmini qıra bilmədi: “Əksinə, müstəqillik düşüncələrinin formalaşmasına, istiqlaliyyətə gedən yolu yaxınlaşdırdı. Bu gün ölkədəki ictimai-siyasi sabitlik, əmin-amanlıq, uğurlu inkişaf yolunda Azərbaycan uğurlu addımlar atmaqdadır”.





Nizami rayon icra hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Mürvət İbrahimov çıxış edərək 20 Yanvar hadisələri ilə bağlı tədbir iştirakçılarına geniş məlumat verib. O, qeyd edib ki, bu qanlı hadisədə 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Bu qanlı hadisəyə ilk siyasi qiymətin, məhz o dövrdə Moskva şəhərində yaşayan Ümummilli Lider Heydər Əliyev tərəfindən verildiyini söyləyən M.İbrahimov, Ulu Öndərin Azərbaycan nümayəndəliyinə gələrək, hadisədə əli olanları lənətlədiyini və SSRİ rəhbərliyini bu qanlı cinayətlərə görə ittiham etdiyini diqqətə çatdırıb.

Tədbirdə məktəblilərin ifasında 20 Yanvar faciəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

**R.HÜSEYNOVA**

# 20 Yanvar faciəsi Azərbaycan xalqının qəhrəmanlıq səhifəsidir

***Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının və Mənzil İnşaatı Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə 20 Yanvar şəhid ailələri və əlilləri ilə görüş keçirilib. Tədbirdə öncə, 20 Yanvar faciəsinin şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı xalqımızın mübarizə tarixində ən şanlı səhifələrdən olan Qanlı Yanvar faciəsinin insanlığa qarşı törədilmiş qatı cinayət olduğunu bildirib. O, 20 Yanvar hadisələrinin mənəvi, siyasi və hüquqi aspektləri barədə məlumat verərək, xalqımızın həyatında və yaddaşında dərin iz qoymuş faciənin ağır nəticələrinə diqqəti yönəltdi: “20 Yanvar faciəsi xalqımızın azadlıq mübarizəsinin rəmzidir. Faciənin səhəri günü Ümummilli Lider Heydər Əliyev təhlükə və təqiblərə baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, Sovet rəhbərliyinə, kommunist rejiminə qarşı etirazını bildirməklə, ekstremal durumda ani olaraq düzgün qərar qəbul etmək bacarığını nümayiş etdirdi. Qanlı Yanvar hadisələrinə ilk dəfə hüquqi-siyasi qiymət də Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verilib”.

Tədbirdə çıxış edən Mənzil-İnşaatı Dövlət Agentliyinin şöbə müdiri, ərazi ilk partiya təşkilatının sədri Fərman Qurbanlı vurğulayıb ki, 20 Yanvar faciəsi, eyni zamanda, xalqımızın milli azadlıq və müstəqillik uğrunda mübarizəsinin kulminasiya və dönüş nöqtəsi idi: “1990-cı il yanvarın 20-də Azərbaycan xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətən övladları canlarından keçərək, şəhidlik zirvəsinə ucalıblar. Ona görə də, bu hadisə Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə həm də bir qəhrəmanlıq səhifəsi kimi daxil olub”.

Tədbirdə çıxış edən 20 Yanvar Cəmiyyətinin Nəsimi rayon şöbəsinin sədri Tahir Fətullayev 20 Yanvar faciəsinin Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi həkk olunduğunu vurğulayıb. Bildirib ki, 20 Yanvar hadisələri, faciəvi olsa da, milli dövlətçiliyimizin bərpasında və milli dövlətçiliyimizə gedən yolda xüsusi önəm daşıyır.

Tədbirdə çıxış edən şəhid ailələri dövlətimiz tərəfindən onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər. 20 Yanvar xalqımızın azadlıq uğrunda mübarizə tarixinin şanlı səhifəsi olduğu və bu tarixin heç vaxt unudulmayacağı vurğulanıb.

Tədbirin sonunda təşkilatçılar tərəfindən Qanlı Yanvar hadisələri zamanı həlak olmuş şəhidlərin ailə üzvləri və əlil olmuş şəxslərə müvafiq yardım edilib.

**Nəzakət ƏLƏDDİNQIZI**



# Bakı Slavyan Universitetində mediatur təşkil olunub

Dünən Bakı Slavyan Universitetində qış imtahan sessiyasının gedişini izləmək məqsədilə mediatur təşkil olunub. Öncə KİV nümayəndələri və müxtəlif media qurumlarının rəhbərlərini BSU-nun rektoru, professor Nurlana Əliyeva qəbul edib və onlara imtahan sessiyası ərəfəsində universitetdə aparılan işlər, imtahanlara hazırlıq barədə məlumat verib. N.Əliyeva BSU-da 2018-2019-cu tədris ilinin qış imtahan sessiyasının uğurla davam etdiyini bildirib. Rektor qeyd edib ki, təhsil nazirinin imtahan sessiyasının təşkili və keçirilməsi barədə imzaladığı əmrinə əsasən, imtahanlar mövcud qaydalara uyğun təşkil edilir, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflıq və obyektivlik təmin olunur.

N.Əliyeva vurğulayıb ki, BSU-da artıq 357 fənn üzrə imtahan təşkil olunub. Hazırda universitetin əsas və ikinci tədris binasında ümumi 44 auditoriyada imtahan keçirildiyini diqqətə çatdıran N.Əliyeva məlumat verib ki, bu imtahanlardan 33-ü əsas binada, 11-i ikinci tədris binasında aparılır. Rektor imtahan sessiyası ərəfəsində hər bir kursun tələbələri ilə ayrı-ayrılıqda görüş keçirdiyini, onlara öz tövsiyələrini verdiyini, imtahanlarda biliyin yeganə meyar olmasını izah edildiyini bildirib. O, imtahanlara hazırlıq üçün universitetdə hər cür lazımi şəraitin yaradıldığını və məsləhət saatlarının keçirildiyini qeyd edib.

N.Əliyeva imtahan prosesində operativliyin təmin edilməsi və şəffaflığın artırılması məqsədilə BSU-nun tədris işləri üzrə portalının “Modul 3” bölməsində bütün kurslar üzrə imtahanların nəticələrinin dərhal elan olunduğunu deyib. Rektor adıçəkilən saytda yaradılmış onlayn əlaqə bölməsindən təkcə tələbələrin deyil, valideynlərin də istifadə edərək, onları maraqlandıran hər bir sualla bağlı dolğun cavab ala biləcəklərini, imtahan qərargahı ilə birbaşa əlaqə yarada biləcəklərini söyləyib. N.Əliyeva universitetdə imtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin təmin olunması, daxil olan şikayətlərin qısa zamanda araşdırılıb, müvafiq qərarların qəbul edilməsi üçün Operativ Qərargah və Münaqişə Komissiyası yaradılıb. Bu günə qədər keçirilən imtahanlardan 40-a yaxın tələbənin Münaqişə Komissiyasında müraciətinə baxılıb, 23 nəfər tələbənin mövcud qaydalara uyğun şəkildə balları qaldırılıb. O, qeyd edib ki, qış imtahan sessiyasında BSU-da tələbələr üçün, hər il olduğu kimi, bu il də İmtahan Qərargahı ilə canlı bağlantı imkanı yaradılır.

Sonra qonaqlar Operativ Qərargahın işi ilə tanış olublar. Qərargahın rəhbəri, professor Habil Məmmədov KİV nümayəndələrinə qərargahın iş prinsipi, tətbiq olunan yeniliklər, şikayətlərin qəbul edilməsi, cavablandırılması və s. barədə ətraflı məlumat verib. Qərargah rəhbəri tələbələrin şikayətlərinə onların özlərinin və valideynlərinin iştirakı ilə baxıldığını, buraxılmış səhvlərin bir-bir izah edildiyini, bir sözlə, ədalətə, obyektivliyə tam zəmanət verildiyini vurğulayıb. H.Məmmədov qərargahla bağlı da məlumat verib. O bildirib ki, rektorun 26 dekabr 2018-ci il tarixli 146 saylı əmrinə əsasən, yaradılmış qərargah 13 nəfərdən ibarətdir. Qərargah rəhbərinin sözlərinə görə, imtahandan əvvəl qərargah üzvləri tərəfindən auditoriyalara baxış keçirilir və çatışmazlıqlar dərhal aradan qaldırılır.

Sonra qonaqlar auditoriyalarda imtahanların gedişatını izləyiblər. Onlar burada kameraların, ağıllı lövhələrin də iş prinsipləri ilə tanış olublar.

Görüşün sonunda jurnalistlər imtahan sessiyası ilə bağlı təəssüratlarını bölüşüblər. İmtahanların gedişatı ilə bağlı müsbət fikirlər səsləndirilib, tələbələr üçün şəffaflığın qorunması məqsədi ilə yaradılan şərait yüksək qiymətləndirilib.

**ZÜMRÜD BAYRAMOVA**

# Müxalifətin birgə mitinq məyusluğu - növbəti iflas

## Eyni bəhanə, eyni böhtan və eyni adamlar

**Söhbət müxalifətin növbəti - yanvarın 19-da keçirmək istədiyi mitinqdən gedir. Bir aya yaxındır ki, hər cür vasitə ilə mitinqə çağırışlar etdilər. Nə gecə dedilər, nə gündüz "onların tək xilası mitinqə gəlməkdir" deyə, vay-şüvən saldılar. Hələ üstəlik, Avropada "siyasi mühacir" adı altında yaşayanlara da çağırış etdilər ki, bütün müxalifət cəbhəsinin təmsilçiləri "birləşin", "çəkici bir zindana döyün" də dedilər.**

Bəli, "siyasi mühacir"lərin əxlaqsız çağırışları da oldu. Bir də bu zəhərli parazitlərdən hansı əxlaqı gözləmək olar? Bu, o əxlaqsız "siyasi mühacirlər"dir ki, aldıqları qrantlara görə bütün mənəviyyatlarını sataraq, anti-Azərbaycan kampaniyaları təşkil edirlər. Faktlar da bunu təsdiqləyir. Belə ki, Azərbaycanda beynəlxalq əhəmiyyətli tədbirlər və yaxud tarixi və önəmli günlər ərəfəsi xarici ölkələrdə Azərbaycan əleyhinə təbliğata start verilir, mitinqlər keçirmək iddiasına düşürlər. İndi də, 20 Yanvar- Şəhidlərimizin ildönümü ərəfəsi AXCP- "Milli Şura" və Müsavatın mitinq keçirmək istəyi yenə də ürəklərində qalacaq. Düşmən dəyirmanına su tökməyi özlərinə şərəfsizlik bilən dağıdıcı müxalifət satqınları - Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Rüstəm İbrahimbəyov, Gültəkin Hacıbəyli, Leyla Yunus, Xədicə İsmayıl... və həmişə olduğu kimi, bu gün də 5-10 avro müqabilində, erməni puluna satın alınmışlar beynəlxalq aləmdə Azərbaycan haqqında yanlış rəy formalaşdırmağa çalışırlar.

### "Siyasi mühacirlər" - dağıdıcı müxalifətin törəmələri "qırğına" çıxdı

Bu gün dağıdıcı müxalifətin törəmələri olan və xarici ölkələrdə Azərbaycan əleyhinə "sapı özümüzdən olan baltalar" ermənipərəst dairələrin qrantları hesabına Azərbaycana qarşı Vətən xainləri - Həbib Müntəzir, Arzu Qeybulla, Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Arif Məmmədov, Qənimət Zahid, Natiq Güləhmədoğlu, Fikrət Hüseynov, Ataxan Əbilov, Arif, Leyla və Ramiz Yunus kimi antimilli şərəfsizlər bu gün çirkin əməllərinə görə, qrantlarla təmin olunur və bu qrantlar isə onları üz-üzə qoyaraq, "qırğına" çıxırlar. Belə ki, Avropada yaşayan mühacirlər, yəni Məhəmməd Mirzəli və Tural Sadıqlının xaricdən alınan qrantların bölüşməsində bir-birilərini saxtakarlıqda günahlandırmaqla, söyüşün birinin bir qara qəpikdən hesablayaraq, küfürlər ediblər.



Qrant uğrunda savaş qızışdıqca, Azərbaycan əleyhdarlarının çirkli pulları ilə bəslənən və onların dirijor çubuğu ilə idarə olunan bu xəyanətkarların özləri boyda zibilləri, getdikcə daha çox üzə çıxacaq. Bu gün hansı formadasa, mitinq keçirmək istəkləri isə, yenə də iflasa uğurayacaq. Çünki müxalifətin bu mitinq quduzluğu 25 ilə yaxındır ki, biabırçı aksiyalar keçirdiklərini anlamırlar. Deyir həya-abır yaxşı şeydir, ancaq qanan üçün. Müxalifət bunu anlamırsa, bunu ancaq quduzluq adlandırmaq olar. Çünki quduzluq infeksiyadırsa, dağıdıcı müxalifətin də mitinq keçirmək kimi virusundan əl çəkə bilməməsindən irəli gəlir. Amma bu ünsürlər sadə bir gerçəkliyi dərk etmirlər ki, iqtidar olmaq - hakimiyyətə gəlmək üçün hansısa xarici dairələrdən yox, məhz xalqdan dəstək almaq lazımdır.

**Rəfiqə HÜSEYNOVA**

# Xədicə İsmayıl-Mehman Hüseynovu əvəzləyən "ehtiyat oyunçu"

***Özünü gah "araşdırmaçı-jurnalist", gah "hüquq müdafiəçisi", gah da "siyasətçi" kimi cəmiyyətə sırımağa çalışan Xədicə İsmayıl bloger Mehman Hüseynovun yoğurtlu və yarım çörəkli "aclıq aksiyası"na dəstək olmaq üçün ona qoşulacağını facebook sosial şəbəkə vasitəsilə yayımlayıb.***



Daha dəqiq desək, bu barədə şəxsi facebook səhifəsində məlumat verən X.İsmayılın həmin statusunu ingilis dilində yazması da diqqətdən kənarda qalmayıb. Məhz bu amil onun sözügedən addımının sifariş məqsədi daşıdığını açıq-aydın göstərməkdədir. Çünki o, sözügedən paylaşımında guya həmkarlarının həbsə atıldığı ölkədə yaşadığını iddia edib. Halbuki bu gün Azərbaycanda, ümumiyyətlə, siyasi motivlərlə həbs edilən jurnalist yoxdur, eləcə də, "siyasi məhbus" anlayışı da mövcud deyil.

### Yoxsa Xədicə İsmayıl reket və şər-böhtançı "jurnalistlərin" müdafiəsinə qalxıb?

Daha bir maraqdoğurucu cəhət budur ki, hətta bu gün həbsdə jurnalistlər olsa belə, onların siyasi deyil, aşkar cinayət əməllərinə görə cəza çəkdikləri göz önündədir. Əgər bu gün reketlər, şantajçı və şərbaz "jurnalistlər" X.İsmayılın gözlərinə "siyasi məhbus" kimi görünürlərsə, əslində, bu, onun öz problemidir və onun nəyi-necə görməsinin ictimai rəyə heç bir aidiyyatı olmaması ilə yanaşı, hər şeyi öz istəyi ilə gördüyünü zorla insanların beyninə sırımağa da haqqı yoxdur. Belə olan halda, X.İsmayılın birdən-birə durub "aclıq aksiyası keçirəcəyəm" tipli fikirləri ilə ingilis dilində status paylaşması, artıq onun haradan tapşırıq almasını aşkar olaraq sübuta yetirməkdədir.

Bu zaman, daha bir sual yaranır ki, əgər X.İsmayıl ciblərində sayt və qəzet vəsiqələri daşıyaraq cinayətlər, şantajlar, şər-böhtanlar yolu ilə reketçilik edən şəxsləri "jurnalist" kimi qəbul edirsə və bununla yanaşı, özünü həqiqi jurnalist hesab edirsə, demək, onun özü də peşəsinə belə hörmət qoymağı bacarmayan bir fərddir.

### Özünü "mübariz jurnalist" kimi zorla gözə soxmağa çalışan X.İsmayıl birdən-birə xatırlayıb ki, "aclıq aksiyası" keçirmək lazımıymış...

Görünən budur ki, X.İsmayıl, sadəcə, jurnalistika adından sui-istifadə edərək, yalnız dövlət maraqları əleyhinə fəaliyyət göstərməklə qrant davası döyür. Əbəs deyil ki, X.İsmayılın dəfələrlə AXCP sədri Əli Kərimli də daxil olmaqla, xaricdə yaşayan milli xainlər arasında qrant dava-şavaları baş verib. İndi, necə deyərlər, özünü "mübariz jurnalist" kimi zorla gözə soxmağa çalışan X.İsmayıl birdən-birə xatırlayıb ki, "aclıq aksiyası" keçirmək lazımıymış... Xüsusilə də, M.Hüseynovun yeyib-içməkli "aclıq aksiyası" ifşa olunduqdan sonra Xədicənin yuyulmamış qaşıq və ehtiyat oyunçu kimi ortaya atılması da, artıq müəyyən nəticələrə gəlməyə əsaslar yaradır. Hər halda, bir müddət sonra, bu şounun da görünməyən tərəfləri bəlli olacaq və ifşalar davam edəcək.

Rövşən NURƏDDİNOĞLU

**P.S. Yəqin, Xədicəyə verilən növbəti sifariş onun üçün göydəndüşmə oldu - arıqlaması üçün əla şans var, əlbəttə ki, Mehman kimi altdan-altdan kabablamasa...**

# Bakcell sosial şəbəkələrdə abunəçi sorğularını 100% cavablandırıb

***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti sosial şəbəkələrdə cavablandırılmış müraciətlərə görə ən yüksək nəticə göstərərək növbəti dəfə nüfuzlu beynəlxalq "Socially Devoted" sertifikatı ilə təltif olunub.***

SİA xəbər verir ki, xüsusi analitik platforma vasitəsilə dünya üzrə məşhur şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqi ilə məşğul olan tanınmış "Socialbakers" şirkəti Azərbaycandakı şirkətlərin "Facebook" şəbəkəsində 2018-ci ilin IV rübü üzrə fəaliyyətlərini nəzərdən keçirib. Göstərilən müddət ərzində Bakcell şirkəti özünün rəsmi "Facebook" səhifəsinə daxil olmuş müraciətlərin 100%-ni cavablandırıb. Qeyd edək ki, Bakcell şirkəti 2018-ci ilin bütün rüblərində abunəçi sorğularının 100%-ni cavablandıraraq yüksək nəticə göstərib. "Bakcell"in "Facebook" səhifəsinin 400 mindən artıq istifadəçisinin olması bu nailiyyəti daha da vacib və təqdirəlayiq edir.

Sosial şəbəkələr məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və müştərilərin suallarının cavablandırılması baxımından "Bakcell"in vacib kommunikasiya vasitələrindən biridir. Şirkətin bir çox sosial şəbəkədə rəsmi səhifəsi fəaliyyət göstərir.

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti Bakcell şirkətinin ümumi fəaliyyətin prioritet istiqamətlərindəndir. Şirkətin müştəri məmnuniyyəti strategiyası dünyanın aparıcı şirkətləri və əhalinin bütün təbəqələrinin tələb və ehtiyaclarının nəzərə alınması ilə yanaşı yerli bazarın tələblərinə əsaslanır.

***

### Bakcell haqqında

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl 4G/LTE mobil internet xidməti göstərir.

Bakcell şirkətinin 4G şəbəkəsi artıq bütün Bakı və Abşeron ərazisi daxil olmaqla ölkənin 40-dan çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsi təmin edir.




7000-dən artıq baza stansiyası vasitəsilə Bakcell şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test"). 2018-ci ildə şirkət "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu mükafat bütün dünyada tanınmış "Ookla" şirkəti tərəfindən "Bakcell"ə Azərbaycan Respublikası ərazisində ən sürətli mobil internet xidmətlərinin göstərilməsinə görə təqdim edilib

Bakcell və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Pressrelizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun.

Qeyri-Bakcell abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə "Bakcell"in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

16 yanvar 2019-cu il

TƏRS BAXIŞ

# Əli Kərimlinin "qara kassaları"

*Yaxud bumeranq geri qayıdacaq*



***AXCP sədri Əli Kərimlinin hazırkı dövrə qədər maliyyə maxinasiyaları, qaranlıq bank əməlləri barədə çoxsaylı faktlar mövcuddur. O da sirr deyil ki, bu gün Qərb ölkələrində oturub, "siyasi mühacirlik" edən trolları belə, Kərimlinin cinayət qoxusu gələn vəsaitlərindən yararlanaraq, guya "siyasi mübarizə" apardıqlarını sərgiləməkdədirlər.***

Gəlin görək, AXCP sədri bu maliyyə vəsaitlərini daha hansı üsullarla əldə edir? Ümumiyyətlə, heç bir yerdə işləməyən, yalnız siyasi təşkilata sahib olan Ə.Kərimli özünü və ətrafındakıları hansı güc hesabına maliyyələşdirir?

Əslində, bu suala cavab taparaq, növbəti faktı ictimailəşdirmək çətin məsələ deyil. Hətta faktlar var ki, AXCP sədri cinayət törətməkdə pərgar olan adamlarını narkotik və s. məsələlərə də bulaşdıraraq, bu vasitə ilə "siyasi gəlirini" artırmaq məqsədini güdür. Misal üçün, bəlli olub ki, Ə.Kərimlinin müşaviri Qabil Məmmədrzayevin daxil olduğu cinayətkar dəstə Bakının Nəsimi rayonundakı Cavadxan küçəsində yerləşən mənzildən 200 min dollar və külli miqdarda zinət əşyaları qarət etmişdi...

Yaxud Cəlilabad rayon təşkilatının sədri Təzəxan Mirələmlinin atası Məhərrəm Mirələmli 3 kiloqram 14,8 qram heroin və 2 kiloqram 307 qram tiryəklə tutulmuşdu...

Bu yaxınlarda məhkəməsi keçirilən bir qrup cinayətkarın içində 1992-ci ildə icra başçısı olmuş, Rusiyada qaranlıq bizneslə məşğul olan Saleh Rüstəmov adlı biri AXCP-ni qanunsuz maliyyələşdirib. Hətta tutulan AXCP ali məclisi rəyasət heyətinin üzvü Aqil Məhərrəmli, partiyanın Nərimanov rayon şöbəsinin sədri Babək Həsənov, gənclər komitəsi məclisinin sədri Ruslan Nəsirli də bu işdə ona yardımçı olublar və...

AXCP sıralarından çıxan belə fərdlər və onların çirkin əməlləri barədə daha çox faktlar ortaya qoymaq mümkündür.

## Şizofrenik ideyaları ilə daha ağır vəziyyətə doğru sürüklənəcək

Ancaq daha bir maraqdoğurucu məsələ Ə.Kərimlinin "qara kassa" rolunu oynayanlarla bağlıdır. Yəni cinayət yolu ilə AXCP-ni maliyyələşdirənlər müxtəlif əyri yollarla bu əməllərini davam etdirsələr də, onlar ifşa olunurlar. Nəticədə isə, bir-bir sıradan çıxdıqca, ifşa olunduqca, Kərimlinin maliyyə kanalları da bağlanır və bu səbəbdən, o, psixoloji gərginlik yaşayır, özünü normal apara bilmir, hətta AXCP kuluarlarında Əli Kərimlinin şizofrenik təbiətli adam olması haqqında da söz-söhbətlər gəzib-dolaşmaqdadır. Bütün bunlar isə, növbəti dəfə isbat edir ki, psixoloji natarazlığı olan AXCP sədri yaxın vaxtlarda şizofrenik ideyaları ilə daha ağır vəziyyətə doğru sürüklənəcək.

Daha bir məsələ AXCP sədrinin trollarının tez-tez sosial şəbəkələrdə verdikləri suallarıdır - Ə.Kərimlinin cinayətləri varsa, o, niyə həbs edilmir? Bu sualın isə cavabı bəsit və yerindədir: AXCP sədri katalizator kimi hər zaman başqalarını alət edir, onları həbs etdirir və nədənsə, qazanan ancaq Kərimli ailəsi olur. Ruslan Bəşirlidən tutmuş Fuad Qəhrəmanlıya, Gözəl Bayramlıya, Əfqan Muxtarlıya və sairlərə qədər həbs edilənlərin hər birinin haqqı, bilavasitə Ə.Kərimlinin boynundadır!

Bu arada, hətta lideri Əbülfəz Elçibəyə qarşı ən alçaq yollarla xəyanət etmiş Ə.Kərimli barədə qardaşı Almurad Əliyevin sözlərini xatırlamaq olardı. SİTAT: "Əbülfəz Elçibəyə xəyanət edənlərin hamısı cəzalandırılıb. Yalnız bir nəfər cəzasız qalıb..."

Cəzasız qalan isə, məhz Ə.Kərimlidir - ona inanan tərəfdarlarının həyatlarını zəhər və zəqquma döndərən, onların həbsləri üzərində özünə siyasi dividend qazanmağa çalışan, hətta şeytanla belə, əməkdaşlığa gedə biləcəyini etiraf edən AXCP sədri, Əli Kərimli!

Rövşən RƏSULOV

***P.S. Bumeranq zərbəsi ifadəsi elə belə işlədilməyib və bir gün Ə.Kərimlinin atdığı bumeranq mütləq şəkildə qayıdıb, birbaşa öz başını çatladacaq. Buna heç bir şübhə yoxdur.***

# Ac toyuq yuxuda darı görər

*Dağıdıcı müxalifətin "birlik" naminə heç bir ideyası reallaşmır*

***Müxalifət düşərgəsində baş verən sükutu pozmağa çalışan keçmiş daxili işlər naziri "Müxalifət zirvəsi" ilə bağlı məlumat yaymaqla "Azərbaycanda ictimai-siyasi vəziyyət və müxalifətin vəzifələri" mövzusunda müzakirələr aparmaq istədilər. Ancaq hələ də, bu, "istək" olaraq qalmaqdadır. Belə ki, nə bir yerə toplaşa bilirlər, nə də birinin sözü o birinin boğazından keçir. Bax, bu yerdə deyirlər: ac toyuq yuxuda darı görər".***

Müxalifətin "zirvə toplantısı"nda iştirak edənlərin hər biri "liderlik" iddiasında olduqları halda, "bir olmaqları" ancaq xülya ola bilər. Çünki 25 ildən çox yol gedən müxalifətin birliyindən söz açmaq gülünclükdür. Bunu Vətəndaş və İnkişaf Partiyasının sədri Sabir Rüstəmxanlı mətbuata açıqlama verərək bildirib ki, belə tərkibdə hər hansı görüşə qatılmaq fikrində deyil: "Bu tərkibdə əvvəllər çox görüşlər keçirilib, heç bir nəticəsi isə olmayıb".

ADP sədri Sərdar Cəlaloğlu isə bildirib ki, o partiyalar güclərini itiriblər. S.Cəlaloğlunun fikrincə, müxalifətin birliyinin yaranması üçün hələ tələsməməlidirlər: "Bu, hələ ki, təşəbbüsdür. Bu müzakirələrdə ortalığa çıxacaq ki, kimin müxalifətin birliyi istiqamətində hansı cəhdləri var. Bilirsiniz ki, müxalifət pariyaları arasında çox ciddi aşılanma gedir, böyük ziddiyyətlər var. Müxalif partiyaları bir-birinə qarşı çox ciddi ittihamlara malikdirlər. Ona görə də, mən düşünürəm ki, tələsmək lazım deyil. Kimlər ki, bir yerdə ola bilər, bir yerdə olmalıdır. Onsuz o partiyalar da əvvəlki kimi bir o qədər də Azərbaycanda ictimai siyasətə təsir etmək imkanına malik deyillər və güclərini itiriblər. Buna görə də, düşmənlərin mehribançılığı, sadəcə olaraq, ölkədə real bir müxalif gücün yaranmasının qarşının alınması üçün atdıqları bir addımdır. Başqa heç cür bunu dəyərləndirmək olmaz".

Bundan sonra isə, "REAL"-ın icra katibi Natiq Cəfərli bu tədbirə qatılmayacaqlarını açıqlayıb ki, indiyə kimi müxalifətin 11 birliyi olub, heç biri də uğurlu olmayıb.

## İçdən parçalanan müxalifətin növbəti şousu

N.Cəfərlinin sözlərinə görə, müxalifət nümayəndələri içdən parçalanma dövrünün ən pik nöqtəsini yaşadıqlarını bilmələrinə rəğmən, yenə də hansısa "zirvədən" danışmağa utanmırlar: "Elə götürək şou yaratmağa cəhd göstərdikləri, lakin yarada bilmədikləri, "Milli Şura" adlı qurum elə ilk gündən dağılmağa məhkum olub. Çünki birliyin, bərabərliyin olmadığı bir yerdə heç bir qurumdan, "şura"dan, hərəkatdan, "zirvədən" danışmaq olmaz. Çünki Azərbaycan müxalifəti özünü gözdən salıb. İstər seçki öncəsi, istərsə də başqa vaxtlarda -zamanlarda müxalifət nümayəndələri bir araya gələ bilməyiblər və biz bu gün də bunun şahidiyik. Onlar müxtəlif ideyalar ortaya atır, ancaq nəticə olmur. Belə düşünürəm ki, bu ideya reallığa çevrilməyəcək. Çünki müxalifət düşərgəsində birlik yoxdursa, deməli, onlar hansısa ideyanı reallığa çevirib, bu qurum və təşkilat ətrafında təmsil oluna, birləşə bilməzlər. Məhz bu da belə bir məntiqi fikir söyləməyə əsas verir ki, "müxalifətin zirvə" toplantısı da heç vaxt reallığa çevrilməyəcək".

R.HÜSEYNOVA



Təhmasib Novruzov

# Susan dünya... Qusan dünya...

***Tarix boyu yaşadığımız dünyanı dövrün və zamanın ruhuna uyğun müxtəlif bənzətmələrlə mənalandırıblar. Dədəmiz Qorqud "Gəlimli- gedimli, son ucu ölümlü dünya" dedi də getdi. Sonra yalan dünya, fani dünya, eibarsız dünya, ikiüzlü dünya...və sair və ilaxır adlarla adlandırıldı hər bir bəşər övladının ümumi VƏTƏNi olan yer kürəsi. İndiki zamanda dünyanın başqa bir adı olmasına ehtiyac hiss etdim və düşünübdaşındım ki, indiki zamanda, ona nə ad verək ki, dövrümüzün fəlsəfəsini özündə ehtiva eləsin.***

Çox fikirləşdikdən sonra, axır ki, belə bir ad tapdım. Adı deməmişdən qabaq, bir giriş verməyə ehtiyac hiss edirəm. Ona görə ki, bəzi-bəzi oxucularımız, yazıda bir xoşagəlməz ifadə görən kimi, buna öz anlamlarına uyğun don geyindirib, hələ bir makiyaj da eləyib, istədikləri kimi təqdim etməyə həvəskardırlar. Odur ki, bir az dünyanın indiki durumundan danışaq, sonra adların "təqdimatı"na keçərik. Beş dənə (məhz "dənə") pullu və atomlu ölkə özlərini dünyanın ən ali qurumu olan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına daimi üzv edib, bəşəriyyəti "bəlalardan qorumaqla" məşğul olurlar. Çox əcəb. Qorumaq lazımdır, yoxsa kürəmizin məhvərindən çıxması, yəni qiyamətin qopması üçün cəmi beş-on dəqiqə vaxt kifayətdir. Böyük şairimiz Bəxtiyar Vahabzadə demiş, "Bir tükdən asılıb taleyi indi, insan əməlinə kaş dözə dünya!" İndi gəlin görək, kürəmizi qorumalı olan bu pullu və atomlu ölkələr doğrudanmı missiyalarını yerinə yetirirlər, yoxsa bu ad altında dünyanı özəlləşdirməyə can atırlar? Bu TŞ deyilən qurum bir ölkəyə qarşı 4 qətnamə qəbul edir, həmin ölkə bu qətnamələri vecə almır, TŞ üzvləri də onun başını tumarlayır, hələ cibinə pul da qoyurlar ki, işində olsun. Amma bir başqa ölkə haqqında bir qətnamə qəbul edir, qətnamənin mürəkkəbi qurumamış, cumur bu ölkəyə ki, TŞ-nin qərarı var. Bütün dünya da bunu görür və susur. Yəni bu reket TŞ üzvləri istədikləri kimi qərar qusur, başqa ölkələr də buna susur. Hələ onu demirik ki, TŞ-nin bir, ya iki üzvü qətnaməyə səs verməyəndə də, onların etirazlarına məhəl qoymayıb, digər üç və ya dörd dövlət qəbul olunmayan Qətnaməni icra etmək adı ilə soxulur bu ölkəyə və oranı xaraba qoyur. Dünya bunu da görür və həmin üç-dörd ölkənin bu qusmasına da susur. Bir ölkədə bir bloger əməlinə görə həbs olunur, yenə dünyanın bəzi-bəzi pullu və atomlu dövlətləri başlayır üfunətli sözlər qusmağa ki, demokratiya pozuldu, insan haqları tapdalandı. Pullu və atomlu ölkələrdən birində haqqını tələb edən dinc etirazçılar öldürülür, həbs edilir, dəyənəklə döyülür, bibər qazı ilə boğdurulur, bu dəfə dünya susur. Bir-iki ölkə atom silahlarını təkmilləşdirə-təkmilləşdirə, daha güclü atom silahına malik olmaq uğrunda yarışır, dünya susur. Mən bu "qusmaq" kəlməsindən narahat olduğuma görə, belə ətraflı izah verirəm ki, oxucu məni düzgün anlaya bilsin. Yəni canlılar nə zaman qusur? Mədəsinə qeyri-münasib qida daxil olanda. Bu pullu və atomlu reket dövlətlər də, onların xoşlarına gəlməyən bir ölkəni həzm edə bilməyəndə, başlayırlar həmin ölkəni söz atəşinə, sonra da güllə atəşinə tutmağa. Həzm edə bilməyib, ifraz etmənin də biologiya elmində bir adı var: qusmaq! Məsələn, haylar nə pəstaha çıxarırlar-çıxarsınlar, dünya susur. Amma Azərbaycanda az qala zəlzələ, yaxud fırtına kimi təbii fəlakətlər baş verəndə də, bu pullu və atomlu ölkələr Azərbaycan hakimiyyətini suçlamaq istəyirlər. Bax, bu, sadəcə, ikili standart deyil, bir müsəlman ölkəsinin inkişafını həzm edə bilməyənlərin söz ifrazatıdır ki, onun da elmi adı qusmaqdır. Bax elə ona görə, dünyanın indiki durumunu mən belə xarakterizə edərdim: susan və qusan dünya! Kim istəyir mənimlə razılaşmasın, özü bilər, amma qloballaşma adı altında dünyanı özəlləşdirməyə cəhd edənlərin söz ifrazatını, bir də belə ifrazatları görüb də səsini çıxarmayan susqunları yaşadan indiki dünyaya bundan yaxşı ad qoyula bilməz. Vəssalam, şüt də tamam!

# DÜNYA QADIN HÜQUQLARININ MÜDAFİƏSİNƏ MÜASİR BAXIŞ

***Dünyada qadın hüquqlarının müdafiəsi istiqamətində aparılan işlər bu gün də davam etdirilir və yəqin ki, gələcəkdə də davam etdiriləcəkdir. Fakt budur ki, qadınlar uzun illər ərzində apardıqları mübarizə nəticəsində, öz haqlarının qorunması, kişi və qadınlar arasında hüquq bərabərliyini qlobal dünyanın ən aparıcı meyillərindən birinə çevirə bilmişlər. Feminizm termini bu meyili ümumi şəkildə simvolizə edir.***

Feminizm (lat. femina - “qadın”) - qadınların hüquqları uğrunda ictimai-siyasi hərəkatdır. İndiki dövrdə feminizmi müxtəlif formalarda müəyyən edirlər. Çox zaman feminizm qadınların azadlıq uğrunda hərəkatının əsasında duran cinslərin bərabərliyi nəzəriyyəsi kimi anlaşılır. Lakin daha çox onu geniş şəkildə - cinslərin hüquq bərabərliyi təsəvvürlərinə əsaslanan qadın hüquqlarının müdafiəsi üzrə müxtəlif hərəkatlar kimi izah edirlər (bu halda, termin qadın hərəkatının sinonimi kimi işlədilə bilər). Feminizm qadınlara verilən ictimai qiymətləndirmədə ədalətsizliyin olmasının qəbul edilməsindən meydana çıxmışdır. O, qadınların sıxışdırılmasının əsaslarını və səviyyələrini təhlil edərək, onların azadlığına nail olmağa çalışır. Axırıncı heç də, birmənalı şəkildə, başa düşülmür. Feminizmin ilk dalğası XIX əsrin sonu, XX əsrin birinci yarısına təsadüf edir. Onun əsas məzmunu cinslərin hüquq bərabərliyinə nail olmaq uğrunda mübarizədən ibarətdir. XX əsrin ortalarından etibarən feminizmin ikinci dalğası başladı. Onun əsasında qadınların kişilərlə faktiki bərabərliyi uğrunda mübarizə dururdu. 1970-ci illərin ortalarında və sonunda Qərbdə, xüsusilə, ABŞ-da hərəkat daha kütləvi xarakter aldı. Bu, çoxsaylı aksiyalarda bir sıra təşkilatların və bir çox lidersiz və öz ənənəvi anlamında nəzəri strategiyasız kiçik qrupların yaranmasında təzahür etdi. 1980-ci illərin ortalarında feminizmin təsiri bir qədər azaldı. Tədqiqatçılar bunu Qərb ölkələrində neokonservativ istiqamətin möhkəmlənməsi, həmçinin, feminizmin öz daxilində yaranan kəskin özünütənqidlə izah edirlər. Əgər 80-ci illərin ortalarına qədər nəzəriyyəçilər tərəfindən, əsasən, Qərbi Avropa və Şimali Amerikanın orta təbəqəsindən olan ağ qadının təcrübəsi nəzərdən keçirilirdisə, sonralar digər qrupların və onların spesifik maraqlarının öyrənilməsinin və nəzərə alınmasının zəruriliyi qəbul olundu. Bu, hərəkatın yalnız praktikasının deyil, nəzəriyyəsinin də vəziyyətində öz əksini tapdı, belə ki, get-gedə daha çox qeyri-tarixi faktorlara yönəlmə ilə bağlı kateqoriya və metodlardan imtina edirdi.

Samir Mustafayev daha sonra yazır: “Feminizmdə cinsin təcrübəsi deyil, genderin təcrübəsi, yəni bioloji-anatomik deyil, mədəni-psixoloji xarakteristikalar nəzərdən keçirilir. Belə ki, praktiki olaraq, cinsin təzahürü və bioloji cinsilik yalnız “qarşılıqlı təsirin insaniləşmə”sinin məhsulu kimi mövcuddur. Müəyyən mədəniyyətə, “insanın təbiəti”nə, onun cins xarakteristikalarına xas olan cins təsəvvürlərinin feminizmə aid edilməsi patriarxatla bağlı bir sıra gizli məsələlərin qeyri-tənqidi qəbulu deməkdir. Bura əmək bölgüsünün müəyyən tiplərini, tabeliliyin iyerarxik prinsiplərini, elmin, fəlsəfənin və tərəqqinin mücərrəd-texnoloji anlamını aid etmək olar. Bu səbəblərdən irəli gələrək, feminizmdə cinslərarası münasibətlər hakimiyyət münasibətlərinin bir tipi kimi başa düşülür, belə ki, “obyektivlik” adı altında bəşəriyyətin özünün maraqları olan bir hissəsi, eyni zamanda, o biri hissəsinin də maraqlarını təqdim edir. Feminizm nəzəriyyəçilərinin fikrincə, bu tip mədəniyyətlərdə qadın, sadəcə, “başqası” kimi təqdim olunur. Feminizm nümayəndələri, hesab edirlər ki, cəmiyyətin kişi və qadınlara münasibətdə tətbiq etdiyi rasional nəzarət sxemi fərqlənir, bununla bərabər, qadın mənəviyyatı tipi təmin olunmamış qalır. Ona görə də, feminizmin məqsədi qadın mənəviyyatının “susma sferası”ndan çıxarılmasıdır.”

Müəllifin fikrincə,feminizmin bir sıra istiqamətləri mövcuddur, onlardan bir qismi az tanınmış (məsələn, anarxofeminizm, konservativ feminizm, humanist feminizm), bəziləri isə kifayət qədər geniş müzakirə olunandır (burjua feminizmi, radikal feminizm, liberal feminizm, “Qara feminizm” və s.). Belə bölgünün özünü problematik hesab etmək olar. Belə ki, o, feminizm kimi qeyri-ənənəvi dünyagörüşün (özünün nəzəriləşdirmə və praktika üsullarının alternativləri ilə) ənənəvi nöqteyi-nəzərdən qiymətləndirilməsini nəzərdə tutur (məsələn, burjua və ya marksist feminizm və s.). Amma istiqamətlərin bu bölgüsü hələ də qəbul olunur, baxmayaraq ki, çox zaman o, müxtəlif əsaslarla aparılır. Bundan əlavə, “feminizm” termini elmin müəyyən sahələrinə - ekofeminizm, kiberfeminizm və s. cins-/gender problemini daxil edən yeni istiqamətlərin adına daxildir.

XX əsr - sosial transformasiya və siyasi sarsıntıların elmi-texniki yüksəliş və inkişaf dövrü olmaqla yanaşı, “qadın inqilabı” adlanan yeni formulun tarixi meydanı dövrüdür. Dünya tarixindən məlumdur ki, bir sira iri siyasi sosial-iqtisadi böhranlar dövründə qadınlar ictimai hərəkatların yaranmasının ilkin təşəbbüskarı və bəzən də liderləri rolunda iştirak etmişlər. Bu zaman onlar, nəinki “güclü cinsi” təkrar etməmiş, hətta kişilərə, onların əxlaqına, dünyagörüşünə və s. təsir etmişdilər. Dövrün nəbzini tutaraq, həm də siyasətin subyekti kimi, qadınlar özlərinin sərt olmayan strukturlu özünütəşkil formalarını (formal və qeyri-formal) yaradırlar. Bu təşkilatlarda ümumi maraq dairəsi olan qadınlar ya kiçik və ya uzun müddətə birləşirlər. Bununla əlaqədar, hətta ədəbiyyatda eyniləşdirilən “qadın problemi”, “qadın məsələsi”, “qadın hərəkatı” kateqoriyalarının bir-birindən fərqlənməsi zərurəti meydana çıxır.

“Qadın problemi” - qadınların cəmiyyətdəki vəziyyəti, onların asılılıqdan azad olmaları proqramının qanunla əsaslandırılması və ictimai həyatın bütün sahələrində kişilərlə eyni hüquqa nail olmaları yollarının dərk edilməsini nəzərdə tutur. “Qadın məsələsi” - bu, ümumilikdə, qadının cəmiyyətdəki yeri, rolu, mövqeyi və hüquqlarıdır.

Feminizm (lat. femina - “qadın”) - qadınların hüquqları uğrunda ictimai-siyasi hərəkatdır. İndiki dövrdə feminizmi müxtəlif formalarda müəyyən edirlər. Çox zaman feminizm qadınların azadlıq uğrunda hərəkatının əsasında duran cinslərin bərabərliyi nəzəriyyəsi kimi anlaşılır. Lakin daha çox onu geniş şəkildə - cinslərin hüquq bərabərliyi təsəvvürlərinə əsaslanan qadın hüquqlarının müdafiəsi üzrə müxtəlif hərəkatlar kimi izah edirlər (bu halda, termin qadın hərəkatının sinonimi kimi işlədilə bilər). Feminizm qadınlara verilən ictimai qiymətləndirmədə ədalətsizliyin olmasının qəbul edilməsindən meydana çıxmışdır.

“Qadın hərəkatı” - bu anlayışın mənası qadınların öz hüquqları və maraqları uğrunda mübarizə formalarının müxtəlifliyini bildirir. Sosioloqlar, əsasən, qadın hərəkatını sosial hərəkatın bir forması kimi öyrənirlər. Qadın hərəkatı özlüyündə bir məqsəd ətrafında birləşmiş, ümumi mənəvi dəyərlərə, normalar sisteminə və qadın mənafeləri rəmzinə malik olan müxtəlif sosial, demoqrafik, etnik və milli qadın qruplarının birgə fəaliyyət istiqamətidir.

Ümumiyyətlə, keçid dövrünün ən böyük problemləri ailə-məişət məsələlərində özünü göstərir. Belə ki, qadınların işlə təmin olunmasının çətinlikləri bir neçə səbəblə izah olunur: aldığı təhsilə uyğun iş yerinin olmaması, işləmək arzusu olduğu halda, ailəsi və yaxud əri tərəfindən məhdudiyyət qoyulması və s. Əməkhaqqının aşağı olması; kişinin və yaxud qadının işləməməsi və ya gördüyü iş müqabilində cüzi əməkhaqqı alması ailədə psixoloji sabitliyi pozur. Feminizasiya əlamətlərinin formalaşması üçün əlverişli şərait də, məhz buradan yaranır. Bu isə, ailə-məişət məsələlərinə mənfi təsir göstərir, boşanmalarda mühüm rol oynayır.

Samir Mustafayev yazır: “Bildiyimiz kimi, qadının cəmiyyətdə rolu daima elmi təfəkkürün diqqətini cəlb etmişdir. Tarix, fəlsəfə, təbiət elmlərində, dində bu problem haqqında bir-birinə tamamilə əks olan fikirlər söylənmiş, o, müxtəlif cür həll edilmişdir. Son nəticədə, bunların hamısı feminizmin bir ictimai hərəkat kimi yaranmasına gətirmişdir. Feminist hərəkatının qadın iştirakçıları, belə hesab edirlər ki, ənənəvi tərzdə yazan tarixçilər tarixi kişi nəzər nöqtəsindən təsvir edirlər, bu zaman tarixi problemə qadın baxışını istisna edirlər. Feminist qadın tədqiqatçıları müasir hüquqşünaslığın əsas istiqamətlərini kişi-mərkəzli sayır, onlardan uzaq dururlar. Onlar göstərirlər ki, hər hansı anlayışı verəndə, kişilər özlərini nəzərdə tuturlar, kişiləri müdafiə edirlər, qadınları yox, buna görə də, cinslərarası fərqi nəzərə almırlar, hüququn ən geniş yayılmış konsepsiyaları isə kişilərin hökmünü əbədiləşdirir. Kişinin hakim olduğu hüququn bu sistemi qadınları qula çevirir. Kişilər sosial, iqtisadi və siyasi hakimiyyətin çox hissəsinə sahib olub, bu üstünlükdən qadınları ictimai və siyasi həyatda, iqtisadiyyatda və ailədə özlərinə tabe etmək üçün istifadə edirlər. Feminist tədqiqatçı hüquqi doktrinalara, hüquqi praktikaya və hüquqi dilə istinad edərək, onların hamısında seksizmin olduğuna işarə edir və bildirir ki, bütün bu hüquqi normalar kişilərin üstünlüyünə hesablanıb.”

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 16 yanvar

## İbrahim Tatlısəsin anası vəfat etdi



Türkiyəli müğənni İbrahim Tatlısəsin anası Leyla Tatlı vəfat edib. SİA-nın türk mətbuatına istinadən verdiyi xəbərə görə, sənətçinin anası xəstəxanada idi. O, uzun müddətdir müalicə alırdı.

## Kənan Doğulu Beren Saatdan boşanır?



Məşhur müğənni Kənan Doğulu həyat yoldaşı Beren Saatla boşanma iddialara cavab verib. Türkiyə mətbuatı xəbər verir ki, bir neçə ay əvvəl Beren Saat ilə 4.5 illik həyat yoldaşı Kənan Doğulu ilə klubda yüksək səslə mübahisə edib dava etdikləri irəli sürülmüşdü. Deyilənləri inkar edən Kənan Doğulu xanımı ilə münasibətlərinin qaydasında olduğunu qeyd edib. "Heç vaxt belə bir şey ola bilməz. Bu dedi-qodular artıq bizi də sıxdı. Ailə həyatımız çox gözəl gedir".

## Təzyiq dərmanları içirsinizsə, bunları mütləq bilməlisiniz!

Arterial təzyiqi normada saxlamaq çox vacibdir. Təzyiqin daim yüksək olması insan sağlamlığına ciddi ziyan vurur, infarkt, insult, ağır böyrək və göz xəstəliklərinin riskini xeyli artırır. Həkimlər hipertoniya xəstələrinə təzyiqi tənzimləyən preparatları təyin edirlər. Bu preparatları müntəzəm olaraq içmək çox vacibdir.

Kanada alimlərinin son araşdırmaları göstərib ki, təzyiq dərmanlarının günün müəyyən vaxtında qəbulu onların effektivliyini xeyli artırır. Belə ki, Alberta Universitetinin alimləri sübut edir ki, təzyiq dərmanların axşam yatmazdan qabaq qəbulu daha effektlidir və ürək tutması, insult və infarktın riskini 61% qədər azaldır.

Saglamolun.az bildirir ki, bundan əvvəl İspaniya alimləri də oxşar araşdırma aparıb və onlar da belə nəticələrə gəlib ki, təzyiq dərmanların yatmazdan əvvəl qəbulu bu dərmanların effektivliyini artırır.

## Madrid teatrı enerjini alqışlardan alacaq

"Gran Via" Madrid teatrı tamaşaçıların generasiya etdiyi enerjini işlətməyə qadir olan ilk İspaniya teatrıdır. O, bu səbəbdən "EDP Gran Via" adlandırılıb. AZƏRTAC xəbər verir ki, növbəti 3 ildə teatrın hamiliyini öz üzərinə götürən "EDP" energetika şirkəti tamaşaçılar tərəfindən yaradılan bütün səsləri (alqışlar, salamlama və gülüş) tutaraq xüsusi akustik topluya göndərəcək. Bu toplu tamaşalar zamanı səs titrəyişlərini yığacaq və qeydiyyata alacaq. Tamaşanın sonunda emal edilən səs kilovat-saatlara çevriləcək.

Yığılan enerji haqqında məlumatlar teatrın sosial şəbəkələrdəki səhifələrində yayımlanacaq. Həmçinin teatrın ekranlarından birində hər şoudan sonra generasiya edilən kilovat-saatların sayğacı göstəriləcək. Ekranda, həmçinin maksimal miqdarda enerji toplayan tamaşaların siyahısı da əks olunacaq.

## DPA: Almaniyanın səkkiz hava limanında tətil başlayıb

Almaniyanın səkkiz hava limanında təhlükəsizlik xidməti əməkdaşları xəbərdarlıq tətilinə başlayıblar. AZƏRTAC DPA agentliyinə istinadla xəbər verir ki, tətil Verdi həmkarlar ittifaqının çağırışı ilə Bremen, Hamburq, Hannover, Drezden, Leypsiq, Münhen və Erfurtda, habelə ölkədə ən iri aviaqovşaq olan Frankfurt-na-Maynda keçirilir. Tətillər müxtəlif vaxtlarda - yerli vaxtla saat 18:00-dan 00:00-dək olan dövrdə başa çatacaq və 220 min sərnişinə təsir göstərəcək. Nə qədər reysin ləğv olunacağı barədə hələlik məlumat verilmir. Təkcə Frankfurt-na-Maynda 1200 uçuşdan 570-nin ləğv edildiyi bildirilir.

Verdi tələb edir ki, Almaniya aeroportlarının 16 min təhlükəsizlik xidməti əməkdaşına vahid əməkhaqqı - hər saat üçün 20 avro təyin olunsun. Hazırda isə maaş regiondan və əməkdaşın vəzifəsinə nəyin daxil olmasından asılıdır.

## "Barselona" dünyada futbolçulara ən çox maaş verən klubdur!

"Barselona" dünyada oyunçulara ildə 500 milyon avrodan çox maaş ödəyən birinci klub olub. Qol.az-ın "AS"a istinadən yaydığı xəbərə görə, bununla bağlı KPMG auditor şirkətinin apardığı araşdırmada bildirilir. Qeyd olunur ki, Kataloniya təmsilçisi 2018-ci ildə futbolçuların əmək haqqına 562 milyon avro xərcləyib. Bu isə 2017-ci illə müqayisədə 42 faiz çoxdur.

"Barselona"nın 2018-ci ildə əsas xərci "Liverpul"dan yarımmüdafiəçi Filippe Koutinyo və "Borussiya"dan (Dortmund) hücumçu Usman Dembelenin transferinə və futbolçusu Lionel Messi ilə müqavilənin müddətini uzatmasına çıxıb. Daha əvvəl yayılan xəbərə görə, "Barselona" il ərzində oyunçusuna orta hesabla 11 milyon avro maaş verən ilk klub kimi tarixə düşüb.



## Mik Şumaxer "Ferrari" ilə müqavilə bağlaya bilər

Formula 1 üzrə yeddiqat dünya çempionu Mixael Şumaxerin oğlu Mik Şumaxer atasının sabiq komandasında sınaq pilotu ola bilər. "Ferrari" komandası M.Şumaxerə sınaq pilotu müqaviləsi təklif edəcək. Müqavilə imzalansa, pilot Bəhreyn və İspaniya Qran-Prilərindən sonra keçiriləcək bolidlərin sınaq yürüşlərində iştirak edəcək.

Qeyd edək ki, ötən il Formula 3 üzrə Avropa çempionatının qalibi olan M.Şumaxer bu ildən Formula 2 yarışlarında iştirak edəcək. O, eyni zamanda, İtaliyanın "Prema" komandası ilə əməkdaşlığını davam etdirəcək.

***Elgün Vidadioğlu***

## Məsut Özil Türkiyə gözəli ilə nişanlanıb



"Arsenal"ın ulduz futbolçusu Məsut Özil və sevgilisi Amine Gülşe evlilik yolunda ilk addımı atıblar. SİA-nın məlumatına görə, türk əsilli futbolçu Türkiyə gözəli ilə nişanlanıb. Bu barədə M.Özil "Instagram" hesabında paylaşım edib. O, nişan mərasimindən şəkli hesabında yerləşdirərək "Allahın icazəsi ilə sonsuzadək", qeydini yazıb.



## Teymur Rəcəbov keçmiş dünya çempionu ilə heç-heçə edib

Yanvarın 15-də Hollandiyanın Veyk-an-Zee şəhərində təşkil olunan şahmat üzrə ənənəvi "Tata Steel Masters-2019" turnirinin dördüncü turunun oyunları keçirilir. AZƏRTAC xəbər verir ki, şahmatçımız Teymur Rəcəbov keçmiş dünya çempionu Vişvanatan Ananda qarşı oyununu heç-heçə başa vurub.

## Cüdoçularımız Təl-Əvivdə Qran-Pri yarışlarına qatılacaqlar



Cüdoçularımız 2019-cu ilin ilk beynəlxalq yarışına yanvarın 24-də Təl-Əvivdə çıxacaqlar. Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, Qran-Pri yarışlarında komandamızın heyətində 18 idmançı mübarizə aparacaq. Kişilər arasında Rövşən Əliyev, Rəşad Yelkiyev (hər ikisi 60 kq), Orxan Səfərov, İbrahim Əliyev (hər ikisi 66 kq), Rüstəm Orucov, Hidayət Heydərov (hər ikisi 73 kq), Murad Fətiyev (81 kq), Məmmədəli Mehdiyev, Tural Səfquliyev (hər ikisi 90 kq), Elmar Qasımov (100 kq), Uşanqi Kokauri və Şahin Qəhrəmanov (hər ikisi 100 kq-dan yuxarı) qüvvələrini sınayacaqlar. Qızların yarışında medallar uğrunda Leyla Əliyeva (48 kq), Gültac Məmmədəliyeva, Buyankşiq Purevsuren (hər ikisi 52 kq), İçinkorloo Munxtsedev (57 kq) və İrina Kindzerska (78 kq-dan yuxarı) mübarizə aparacaqlar. Turnirə yanvarın 26-da yekun vurulacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**